39_27 IYUl-QARA.qxd 10/16/2025 8:10 PM Page 1

UNİKAL

№39 (2269) 17 oktyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# "Ramiz Mehdiyev işi"ndə növbəsini gözləyənlər...



Səh.6

## "Artıq dövlət səviyyəsində həbs qərarı verilib"

*Keçmiş təhsil naziri Misir Mərdanov "Unikal"a müsahibə verib. O, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlətə qarşı cinayətlər törətməkdə ittiham olunmasından, onun əmlaklarının müsadirə oluna biləcəyindən, bu iş çərçivəsində başqa şəxslərin də həbs olunması ehtimalından və fəxri adların geri alınması məsələsindən danışıb.*

*-Misir müəllim, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev barəsində 4 aylıq ev dustaqlığı qərarı çıxarılıb. O, dövlətə qarşı cinayətlər törətməkdə ittiham olunur. Bu məsələyə münasibətinizi öyrənmək istərdik...*

*-Bu qərar verilməmişdən əvvəl də münasibət bildirmişəm. Artıq dövlət səviyyəsində Ramiz Mehdiyevin həbsi haqqında qərar verilib. Gözləyirik ki, hansı cəza veriləcək. Hesab edirəm ki...*

Səh.4

## "Dövlət çevrilişinə cəhd təkbaşına mümkün deyil" - Partiya sədri



*"Ramiz Mehdiyevə qarşı irəli sürülən ittihamlar həddindən artıq ciddidir. Yəqin ki, bu ittihamların altını dolduracaq istintaq əməlləri də olacaq". Bunu "Unikal"a açıqlamasında REAL Partiyasının sədri Natiq Cəfərli deyib. Onun sözlərinə görə, bu addımları həyata keçirmək üçün Ramiz Mehdiyevin komandası olmalı idi:*

Səh.3

## Zəfər Gününə həsr olunmuş hərbi parad keçiriləcək




*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərində Zəfər Gününün beşinci ildönümü münasibətilə hərbi parad keçiriləcək. Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Parada hazırlıqla bağlı...*

Səh.2

## TƏBİB-dən Cavanşir Feyziyevə 800 min manatlıq şok



*Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) Milli Məclisin deputatı Cavanşir Feyziyevin oğlu Orxan Cavanşirlə bağladığı müqavilənin maliyyə dəyərini 66,7 faiz azaldıb. "Yeni Sabah"ın əldə etdiyi xəbərə görə, müqavilə deputatın oğluna məxsus ofis və anbar kompleksinin icarəsi ilə bağlıdır.*

Səh.5

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:17 PM Page 2



# Aysun Rəqsana ilə bağlı paylaşım etdi: "Sənə çox ehtiyacım var"



***Müğənni Aysun İsmayılova həbsxanada olan anası Rəqsanə İsmayılova ilə paylaşım edib.***

Aysun anası ilə fotosunu paylaşıb. O, paylaşıma "Sənə çox ehtiyacım var" şərhini yazıb.

Qeyd edək ki, Rəqsanə dələduzluqda ittiham olunaraq həbs edilib.

# Vüsaladən Türkana: "Mənə və meyxana aləminə hörmətsizlik etdin"

***Aparıcı Vüsalə Əlizadə müğənni Türkan Vəlizadə ilə bağlı tənqidi çıxış edib.***



Bizim.Media xəbər verir ki, Vüsalə "İncə səhər"də Türkan verilişə gəlmədiyi üçün onu qınayıb. Əlizadənin iddiasına görə, Türkan "Meyxanaçılarla efirə çıxmıram" deyərək gəlməyib: "Bugünkü dəyişiminin bir səbəbkarı da mənəm. Bəlkə danar, bəlkə danmaz. Ailəsinə, anasına, atasına böyük hörmətim var. İlk dəfə müsahibəsini mən hazırlamışam. Bu gün "meyxanaçılarla bir efirə gəlmirəm" demək səni hörmətli etmir. Sən bu qazandan çörək yemisən. Sən bir meyxanaçı ilə olan ifanla tanınıb sevilmisən, pul qazanmısan, bu gün Türkan Vəlizadə olmusan. Bu, birinci "Xəzər" televiziyasına, sonra isə mənə və çörək qazandığın meyxana aləminə hörmətsizlik idi. Çox sağ ol".

# "Dəyərli bir insanı itirdik" - Nazir

***Xəbər verdiyimiz kimi, Xalq artisti, tarzən Ramiz Quliyev ötən gün dünyasını dəyişib.***



Beynəlxalq Muğam Mərkəzində mərhumla vida mərasimi keçirilir. Mədəniyyət naziri Adil Kərimli mərasimdə çıxış edərək R.Quliyevvin yaradıcılığından, tar sənətinə verdiyi töhvələrdən bəhs edib: "Quliyevlər ailəsi, dəyərli sənətçilərimiz, əziz mərasim iştirakçıları: hamımız üçün ağır gündür. Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Hamımız üçün, bütün Azərbaycan xalqına dəyərli olan insanı itirmişik. Ramiq Quliyev ifaçılıq sənəti, pedoqoji fəsliyyəti ilə hamıya nümunədir. O, Azərbaycan mədəniyyətində elə bir irs yaradıb ki, zamana sığdıra bilməyəcəyik qədər böyükdür. Hər kəsə örnək olacaq. Onun tək ifaçılığı deyil, yaradıcılığı o qədər böyükdür ki... Böyük bir ifaçı olmaqla, tar sənətini təbliğ etməklə, tar sənətini nəinki ölkədə, dünyaya tanıtmaqla məşğul olub. Azərbaycan mədəniyyətinin dünyada sevilməsində rol oynayıb. Xalqın hər bir nümayəndəsi onun ifasını tarı sanki danışır kimi qiymətləndirir. Onun ifasında tar sanki canlanır, fərqli bir irsdir. Bunu hər kəs yarada bilmir. Bunun yaradıcılığı əbədi olaraq yadda qalacaq. Əvəzolunmaz pedoqoq, alim idi. Çoxsaylı tələbələr yetişdirib. Onun əziz xatirəsi hər birimizin yaddaşında əbədi olaraq qalacaq".



# Mənzurə: "Ailəmi qayınanam dağıtdı"

***"Pis qayınana deyildi. Amma ayrılmağımın səbəbkarı o oldu. Dedi ki, övladın olmursa ayrıl".***

Bu sözləri müğənni Mənzurə Musayeva "Qonaqcanlı" verilişində deyib. Sənətçi ailəsinin dağılamsının səbəbinin qayınanası olduğunu deyib: "Mən ola-ola həyat yoldaşıma qız da tapmışdı. Elə bildi onunla evlənsə övladı olacaq.

Amma olmadı. Demək səbəbkar o imiş. Mənim övladsız qalmağımın səbəbi odur". (Axşam.az)

# Azərin yerinə verilişə o aparıcılıq edəcək

***"Xəzər TV"də yayımlanan "Zarafat bir yana" proqramı yenidən efirə qayıdır.***



Verilişin yayımı aktyor Azər Baxşəliyev dünyasını dəyişəndən sonra dayandırılmışdı. Proqramda bu dəfə Nicat Rəhimovun tərəf müqabili Əlixan Rəcəbov olacaq. Azərin yerinə verilişə o aparıcılıq edəcək.

Qeyd edək ki, Azər bu ilin yanvarında böyrək çatışmazlığından dünyasını dəyişib.

# Elton Hüseynəliyev yeni işə düzəldi



***Əməkdar artist Elton Hüseynəliyev yeni fəaliyyətə başlayıb.***

Müğənni bu haqda "Qonaqcanlı" verilişində deyib. O bildirib ki, musiqi müəllimi kimi işə başlayıb:

"Müəllim kimi çalışıram. Asəf Zeynallı adına Musiqi Məktəbində dərs deyirəm. Bu, hər insanın qisməti olmur. Gərək sənətin haqqını verəsən". (Axşam.az)

# Əməkdar artist vəfat etdi

***Əməkdar artist Rəşad Bəxtiyarov vəfat edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı sosial şəbəkələrdə məlumat yayılıb.

Qeyd edək ki, o, 46 yaşında dünyasını dəyişib.

Xatırladaq ki, R.Bəxtiyarov Akademik Milli Dram Teatrının səhnəsində bir çox rolları oynayıb. O həmçinin "Həqiqət işığında" və "Bəyaz həyat" telefilmlərinə də çəkilib.





# "Gələn ay Ağdama 900 ailənin qayıdışı gözlənilir" - Emin Hüseynov

***Azad edilmiş ərazilərdə bərpa prosesi vahid baş plan əsasında aparılır.***

"Unikal" xəbər verir ki, bunu Xankəndidə keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda çıxış edən Prezidentin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov bildirib. O deyib ki, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri vahid baş plan konsepsiyası əsasında həyata keçirilir: "Son beş ildə baş verən proseslərin şahidi olmaq, Qarabağda bərpa prosesinin bir parçası kimi çıxış etmək böyük qürurdur".

Emin Hüseynovun sözlərinə görə, Ağdam, Füzuli və Xocavənd rayonlarını əhatə edən 2,7 min kvadratkilometrlik ərazi 13,6 min kvadratkilometrlik azad edilmiş torpaqların ən fəal bərpa olunan hissəsidir. O bildirib ki, bərpa prosesi beş mərhələdən ibarətdir - baş planlaşdırma, minalardan təmizləmə, infrastrukturun yaradılması, sosial-iqtisadi obyektlərin qurulması və Böyük Qayıdış: "Bütün addımlar paralel şəkildə aparılır. Əsas prinsip ərazi bərabərliyidir - bütün regionlarda eyni konsepsiya tətbiq olunur".

Xüsusi nümayəndə qeyd edib ki, Ağdam azad edilmiş ərazilərin ən böyük, Azərbaycanın isə dördüncü böyük şəhərinə çevriləcək. Burada 100 min nəfər, Füzulidə isə 50 min nəfər əhalinin yaşayacağı planlaşdırılır: "Hər iki şəhərin baş planı beynəlxalq ekspertlərin iştirakı ilə hazırlanıb və 2040-cı ilə qədər dövrü əhatə edir".

Bundan əlavə, nümayəndə bildirib ki, gələn ay Ağdama 900 ailənin qayıdışı gözlənilir. Onun sözlərinə görə, Böyük Qayıdış proqramı çərçivəsində yaxın vaxtlarda Ağdama yeni sakinlərin köçürülməsi planlaşdırılır. "Gələn ay Ağdama ilk 900 ailənin qayıdışı gözlənilir. Bu, Böyük Qayıdış prosesinin növbəti mərhələsidir və hamımız üçün böyük sevinc xəbəridir," - deyə Emin Hüseynov vurğulayıb. Onun sözlərinə görə, hazırda bölgədə 16 magistral yol (ümumilikdə 600 kilometr) və Bakı-Ağdam dəmir yolu yenidən qurulub, bir beynəlxalq hava limanı isə cəmi 8 ay ərzində istifadəyə verilib.

Xüsusi nümayəndə əlavə edib ki, Ağdamda üç kənddə artıq məskunlaşma başa çatıb, təxminən 4 min nəfər geri qayıdıb."Bu insanlar doğma torpaqlarına qayıdıblar, evləri və iş yerləri var. Ən vacibi isə həyat artıq bərpa olunur," - deyə E. Hüseynov qeyd edib.

Hazırda bölgədə iqtisadi cəhətdən aktiv əhali 2 200 nəfərdir, işsizlik səviyyəsi isə 8 faizdən aşağıdır.

# Dövlət Reklam Agentliyi ilə "Sədərək" Ticarət Mərkəzi arasındakı qarşıdurmanın ilginc pərdəarxası

## Bir olaya fərqli baxış: məmurlarla sahibkarlar arasındakı qovğada kimdir günahkar? - Çubuğun iki başı var...

***Yola salmaq üzrə olduğumuz həftə sosial şəbəkələrdə "Sədərək" Ticarət Mərkəzində əlbəyaxa dava düşməsi ilə bağlı görüntülər yayıldı. Ardınca isə məlum oldu ki, insidentə səbəb Dövlət Reklam Agentliyinin əməkdaşlarının reklam lövhələrini sökmək istəmələri olub. Tərəflər arasında əlbəyaxa dava düşüb, nəticədə "reklamçılar" Ticarət Mərkəzindən qovulublar.***

Hadisə ilə bağlı Azərbaycan Dövlət Reklam Agentliyinin mətbuat xidmətindən ajans.az-a bildirilib ki, qurumun əməkdaşlarının bəziləri xəsarət alıb, ekspertiza təyin olunub. Həmçinin agentliyin avtomobilinə zərər dəyib, araşdırma aparılır. Agentlikdən verilən məlumatda o da bildirilib ki, qanunvericiliyə əsasən açıq məkanda reklam anlayışı mülkiyyət əsasında müəyyənləşdirilmir. Sitat ""Sədərək" Ticarət Mərkəzindəki reklam qurğuları Ticarət Mərkəzinin daxilində deyil, yol kənarından açıq şəkildə görünən, açıq məkana ünvanlanan sahələrdə quraşdırıldığından açıq məkanda reklam hesab edilir. Aparılan monitorinqlər nəticəsində müəyyən edilib ki, Ticarət Mərkəzinin kənarında yerləşdirilən bir sıra reklam daşıyıcılarının mövcud vəziyyəti reklam qurğularına dair tələblərə cavab vermir, yerləşdirildikləri ərazinin estetik görünüşünə mənfi təsir göstərir. Həyata keçirilən tədbirlər sahibkarlıq fəaliyyətinə müdaxilə deyil, qanunvericiliyin tələblərinin icrasıdır. Bildiririk ki, qarşı tərəfin iddia etdiyi məhkəmə qərarının məzmunu reklam daşıyıcıları ilə bağlı deyil, açıq məkanda reklam yerləşdirilməsinə icazə ilə əlaqədardır".

Lakin adı çəkilən Ticarət Mərkəzinin sahibkarları başqa mövqedədirlər. Onlar şikayətləniblər ki, kifayət qədər pul verib quraşdırdıqları reklam lövhələri xəbər verilmədən yararsız hala salınıb. "8 nəfər üstümə cumub. Plakatımın qarşısında dayanıb dedim ki, ona əl vurmayın. Ticarət mərkəzinə gələn adam reklam lövhəsi əsasında mənim mağazamı tapıb, malımı alır", - deyə sahibkarlardan biri "Baku TV"yə narazılığını bildirib.

"Reklam lövhələrini icazəsiz kəsiblər, doğrayıblar... Biz reklamlarla işləyirik, burda reklamsız işləyə bilmərik" - başqa bir sahibkar vurğulayıb.

Sahibkarlardan biri ona 50 min manat zərər dəydiyini deyib, digər bir sahibkar isə bildirib: "Axşam əziyyət çəkirik, aparıb reklam vururuq, sabah gəlib görürük ki, reklam yoxdur. Reklamda məqsədimiz odur ki, ticarət mərkəzinin hansı bölməsində, hansı cərgəsindəyik, onu gələn vətəndaş görsün, oranı tapa bilsin".

Məsələ ilə bağlı "Sədərək" Ticarət Mərkəzinin mətbuat xidmətinin rəhbəri Kəmaləddin Qədim bildirib ki, heç kimdən icazə almadan ticarət mərkəzi daxilində olan reklam lövhələrini söküblər: "Azərbaycan Dövlət Reklam Agentliyinin əməkdaşları "Sədərək" Ticarət Mərkəzinə kranlarla, yük maşınları ilə hücum ediblər. Onlar heç kimdən icazə almadan ticarət mərkəzi daxilində olan reklam lövhələrini sökük dağıdıblar. Demək olar ki, 21 reklam lövhəsi sökülüb dağılıb. Bunu mütəxəssislər hesablayıb ki, hər biri 10 min manat dəyərində olan reklam lövhəsinə bütövlükdə 210 min manat zərər dəyib".

Qeyd edək ki, hər bir halda məmurların fəaliyyətinə zorakı şəkildə müdaxilə yolverilməzdir. Elə "Sədərək" Ticarət Mərkəzinin sahibkarları da hansısa qurumdan narazıdırlarsa, problemi hüquqi müstəvidə həll etmək yolu tutmalı idilər. İndiki halda isə onlar haqlı ikən haqsız vəziyyətə düşmək riski ilə üz-üzə qala bilərlər. Yeri gəlmişkən, olayla bağlı Daxili İşlər Nazirliyindən bildirilib ki, "Sədərək" Ticarət Mərkəzində tərəflər arasında yaranan insidentlə bağlı polisə müraciətlər daxil olub. Qaradağ Rayon Polis İdarəsinin İstintaq Şöbəsində hadisənin təfərrüatları ilə bağlı araşdırma aparılır. Xəsarətlərin dərəcəsini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib. Araşdırmanın nəticəsindən asılı olaraq əmələ hüquqi qiymət veriləcək.

Digər tərəfdən, Azərbaycan Dövlət Reklam Agentliyinin də məsuliyyəti göz qabağındadır. Belə ki, "Sədərək" Ticarət Mərkəzinin mətbuat xidmətinin rəhbəri K.Qədim yerli KİV-ə açıqlamasından məlum olub ki, sahibkarlarla Agentlik arasında konfliktin kökü dərindir, məsələ hətta məhkəməyə gedib çıxıb. Sitat: "Apellyasiya Məhkəməsi qərar da verib. Məhkəmə qeyd etməyi zəruri hesab edir ki, "Sədərək" Ticarət Mərkəzinin ərazisində üstü bağlı olan ticarət mağazaları, ictimai iaşə obyektləri və sair bu kimi təyinatlı obyektlər mövcuddur. Yaxınlıqda heç bir yaşayış məntəqəsi yoxdur. Ticarət mərkəzi özəl mühafizə xidməti tərəfində mühafizə olunur. Ticarət mərkəzi əsas avtomagistraldan 200 metr, avtomobil yolundan isə 100 metr məsafədə yerləşir. Onun 4 girişi vardı. "Sədərək" Ticarət Mərkəzinin daxili ərazisi qapalı məkandır. İş vaxtı 24 saatı əhatə etmir, axşam saatlarında - saat 19:00-dan sonra isə ticarət mərkəzi bağlanır və heç bir fəaliyyət göstərmir. Ərazi özəl mühafizə xidmətləri tərəfindən mühafizə olunur. İşıqlandırılan lövhələr söndürülür". Kəmaləddin Qədimin sözlərinə görə, Agentlik məhkəmənin qərarına artıq ikinci dəfədir məhəl qoymur.

Ümumiyyətlə isə son zamanlar Azərbaycan Dövlət Reklam Agentliyindən şikayətlərin intensivləşdiyi müşahidə olunur. Bu qurumdan iş adamları, sahibkarlar da narazıdır, reklam şirkətləri də. Elə ekspertlər də Agentliyin fəaliyyətinin düzgün qurulmadığı qənaətindədirlər. Məsələn, memar Cahid Həsənov bu günlərdə "Avtosfer.az"a deyib ki, Azərbaycan Dövlət Reklam Agentliyi öz adına uyğun fəaliyyət göstərmir. Sitat: Adı "Azərbaycan Dövlət Reklam Agentliyi" olsa da, faktiki olaraq yalnız açıq hava reklamlarına nəzarət edir. Halbuki nə metroda, nə qoruqlarda, nə nəqliyyatda, nə mediada, nə də sosial mediada bu qurumun heç bir hüquqi təsiri yoxdur və açığı, buna görə sevinmək lazımdır. Çünki açıq hava reklamlarını bu vəziyyətə salan bir qurum, digər sahələrə də müdaxilə etsəydi, orada da eyni tənəzzül yaşanardı. Konkret olaraq, Azərbaycan Dövlət Reklam Agentliyi yarandığı gündən bəri ciddi səhvlərə yol verib. Onun keçmiş rəhbəri Aydın İbadovun dövründə bu problemlər başladı, mən isə düşünürdüm ki, yeni rəhbərlik dövründə vəziyyət dəyişəcək. Təəssüf ki, səhvlər aradan qalxmadı, əksinə, vəziyyət getdikcə daha da pisləşdi".




Agentlik sahibkarları incitməklə yanaşı, reklam bazarında monopoliya yaratmaqda da günahlandırılır. Bildirilir ki, hazırda nəinki bölgələrdə, hətta Bakının özündə belə reklam şirkətləri reklam yerləşdirə bilmirlər. Elə memar C.Həsənov da bu məqama diqqət çəkərək bildirib ki, bir tərəfdən süni monopoliya yaradılıb, digər tərəfdən isə illərdir fəaliyyət göstərən milli reklam şirkətlərinin reklamları "yararsız" adı ilə demontaj edilir, sökülür və tamamilə sıradan çıxarılır. Onların yerinə isə cəmi bir-iki "xüsusi təyin olunmuş" şirkətə imtiyaz verilir və bütün reklam bazarı həmin qurumların əlində cəmləşir.

Nəticə etibarilə adı çəkilən Agentlik reklam bazarını tənəzzülə aparmaqda günahlandırılır.

Ekspertlərin ümumi fikri belədir ki, sözügedən qurumun hazırkı yanlış fəaliyyəti davam edərsə, gələcəkdə onun əməkdaşları ilə sahibkarlar arasında "Sədərək" Ticarət Mərkəzində yaşanmış qarşıdurma təkrarlana, hətta belə qovğalar adiləşə bilər...

***Toğrul Əliyev***

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:20 PM Page 4



# Ramiz Mehdiyevin dövlət çevrilişi planının detalları

## O, hakimiyyəti zorla ələ keçirdikdən sonra müvəqqəti Dövlət Şurası formatında qurum yaradılmasını təklif edibmiş

***Təhlükəsizlik Şurasının üzvü, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllərinin və dövlətə xəyanətinin detalları məlum olub.***

"Unikal" xəbər verir kiŞ APA etibarlı mənbələri vasitəsilə öyrənib ki, Ramiz Mehdiyev Rusiyanın dəstəyi ilə dövlət çevrilişi etməklə bağlı plan hazırlayıb və bunu öz kanalları vasitəsilə Rusiyaya təklif edib.

**Ramiz Mehdiyev nə vaxt hərəkətə keçib?**

Ramiz Mehdiyev Azərbaycanla Rusiya arasında münasibətlərdə yaranmış gərginlik dövründən faydalanmağa çalışıb. Xatırladaq ki, ötən ilin 25 dekabrında AZAL təyyarəsinin Rusiya səmasında vurulmasından sonra Azərbaycan və Rusiya münasibətlərində ciddi gərginlik yaranıb. Rusiyanın AZAL təyyarəsinin vurulması ilə bağlı üzr istəyib, təzminat ödəməkdən boyun qaçırması rəsmi Bakıda kəskin etirazlar doğurub. Rusiya ilə münasibətlərin gərginləşməsi hər iki ölkənin ictimai və media mühitində geniş müzakirə və tənqidlərə səbəb olub.

Ramiz Mehdiyev isə bu vəziyyətdən istifadə edərək, öz kanalları və köhnə dostları vasitəsilə Rusiyaya dövlət çevrilişi planının hazır olduğunu, bu məsələdə Moskvadan dəstək gözlədiyini çatdırıb.

Xatırlatmaq yerinə düşər ki, Rusiya-Azərbaycan münasibətlərində gərginlik pik həddə olanda - bu il mayın 9-da İmişli Rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədov SSRİ bayrağı altında, sinəsində rus imperiyasının rəmzi olan "Georgi lenti" ilə tədbir təşkil etmişdi. Bu hərəkətinə görə vəzifəsindən uzaqlaşdırılan, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilmiş Saleh Səmədov Ramiz Mehdiyevin köhnə dostlarından və biznes ortaqlarından biri hesab olunur.

**Ramiz Mehdiyevin hansı planı olub?**

Ramiz Mehdiyev planında dövlət hakimiyyətini zorla ələ keçirdikdən sonra keçid dövrü üçün müvəqqəti Dövlət Şurası formatında qurum yaradılmasını təklif edib. Bu plan 87 yaşlı köhnə bürokratın özünün rəhbər olmasını nəzərdə tutub. Məlumata görə, Mehdiyev rəhbərlik edəcəyi Dövlət Şurasında təmsil olunacaq şəxslərlə bağlı məlumatı da Rusiya ilə bölüşüb.

**Ramiz Mehdiyevin planı necə ifşa olunub?**

Məlumatlı mənbənin APA-ya bildirdiyinə görə, Azərbaycan və Rusiya prezidentlərinin görüşdüyü Düşənbədə Rusiya tərəfi özü Ramiz Mehdiyevin təklifi və onun şəbəkəsinin planı haqqında Azərbaycan tərəfinə məlumat verib.

Görünən odur ki, 87 yaşlı Ramiz Mehdiyev artıq davamlı xahişləri və israrı ilə Rusiyanı da bezdirib. Ona görə də Rusiya heç bir perspektiv vəd etməyən Mehdiyevdən tamamilə imtina edib və onun planı, şəbəkəsi ilə bağlı rəsmi Bakını özü məlumatlandırıb.

**Ramiz Mehdiyev - Rusiyanın köhnə dostu**

Ramiz Mehdiyevin Rusiyaya yaxınlığı həmişə bəlli olub. O, hələ sovet dövründən Moskvanın agentura şəbəkəsinin üzvü kimi tanınıb. Ramiz Mehdiyev uzun illər öz imkanlarından istifadə edərək, Azərbaycan hakimiyyətində də Rusiyanın "dostları" olan məmurların vəzifə pillələrində, parlamentdə və mediada irəliləmələrinə şərait yaradıb.

Vətən Müharibəsindən əvvəl isə Azərbaycanda rusiyapərəst məmurlar vəzifələrindən uzaqlaşdırıldı, Ramiz Mehdiyev də vəzifəsindən azad olundu.

Bunun ardınca Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti seçilən Ramiz Mehdiyev orda da intriqalardan əl çəkmədi. AMEA-dan da siyasi məqsədləri üçün yararlanan Ramiz Mehdiyev elm mərkəzində dözülməz mühit yaratdı, az qala AMEA-nın bütün institutları onun istefasını tələb etdi. 2022-ci il fevral ayının 14-də AMEA-da keçirilən iclasda yaşı ilə əlaqədar vəzifəsini tərk etdiyini və bu məsələ ilə bağlı dövlət başçısı İlham Əliyevə müraciət edəcəyini bildirdi. Fevralın 19-da AMEA-nın Ümumi Yığıncağı keçirildi və Ramiz Mehdiyevin istefası qəbul edildi.

Ancaq martın 17-də Ramiz Mehdiyevin Akademiyada olduğu haqda məlumat yayıldı. AMEA-dan verilən açıqlamada Ramiz Mehdiyevin binaya şəxsi əşyalarını götürmək üçün gəldiyi bildirilmişdi. Ancaq sonra məlum oldu ki, Ramiz Mehdiyev Akademiyada, məhz Akademiya Prezidentinin otağında Rusiyadan gələn nümayəndələrlə - Rusiya Elmlər Akademiyasının prezidentinin köməkçisi ilə görüş keçirib.

Yay aylarında isə Ramiz Mehdiyevin bir qrup sabiq məmurla Novxanıda görüş keçirməsi barədə mediada məlumat yayıldı. Görüşün məzmunu barədə məlumat olmasa da, görüş tarixi Rusiya Azərbaycan münasibətlərindəki gərginliyin pik vaxtına təsadüf etdiyini göstərir.

Qeyd edək ki, Ramiz Mehdiyevin AMEA-ya rəhbərlik etdiyi dövrdə törədilmiş qanun pozuntuları ilə bağlı cinayət işi var. Hesablama Palatasının 2020-2023-cü illəri əhatə edən yoxlamaları nəticəsində AMEA-da çoxlu sayda nöqsan və qanunsuzluqlar aşkarlanıb.

Baş prokuror Kamran Əliyev bu il oktyabrın 1-də jurnalistlərə açıqlamasında bildirib ki, AMEA-dakı qanun pozuntuları ilə bağlı hərtərəfli araşdırma aparılıb.

"Həmin cinayət işində bir neçə epizod üzrə istintaq aparılıb, artıq bəzi epizodlarda ibtidai istintaq tamamlanıb. Cinayət işləri baxılması üçün məhkəməyə göndərilib", - deyə Baş prokuror vurğulayıb.



**Ramiz Mehdiyevin ailəsi, sərvəti**

Ramiz Mehdiyevlə bağlı mediada yayılan qalmaqallardan biri onun kürəkəni, eks-deputat İlham Əliyevin Novxanı qəsəbəsindəki bağ evində qızı Fidan Əliyevaya toy etməsi idi. 2020-ci il avqustun 18-də, ölkədə sərt karantin rejiminin tətbiq olduğu vaxtda Mehdiyevin bağ evində 100-dən çox qonağın iştirakı ilə keçirilən mərasim aşkarlanandan sonra onun kürəkəni İlham Əliyev inzibati qaydada həbs edilmişdi.

Mediada yayılan məlumatlara görə, Mehdiyev ailəsinin yüzlərlə hektar torpaq sahələri, saysız-hesabsız daşınmaz əmlakı, bank və böyük şirkətlərdə əmlak payları var. Ramiz Mehdiyevin qızı Kamilə Əliyevanın "Baku Oksford Məktəbi"ndə 1/2 hissə pay uğrunda mübarizəsi bu yaxınlarda Ali Məhkəmədə onun məğlubiyyəti ilə başa çatıb.

Ramiz Mehdiyevin həyat yoldaşı Mehdiyeva Qalina Yuriyevna barəsində də məhkəmə iddiası qaldırılıb.

Mehdiyeva Qalina Yuriyevna barəsində məhkəmə iddiası qaldıran şəxs "Fireland Vineyards" MMC-nin ("Odlar Yurdunun Üzümlükləri") qanuni təmsilçisi Səidov Elmar Çingiz oğludur.

Ramiz Mehdiyevin ailəsi, yəni həyat yoldaşı Qalina Mehdiyeva və oğlu Timur Mehdiyev onun külli miqdarda borclanmasına səbəb olublar.

Yeri gəlmişkən, təkcə Novxanı qəsəbəsində Ramiz Mehdiyevin ailəsinə məxsus 155 hektar torpaq sahəsi olub.

Kənd Təsərrüfatı Nazirliyinin 2015-2018-ci illər üçün açıqladığı rəsmi məlumatlara görə, Novxanı kəndində subsidiya alan cəmi 2 fermer təsərrüfatı olub. Onlardan biri Mehdiyeva Qalina Yuriyevna, digəri isə Mehdiyev Timur Ramiz oğluna məxsus olub.

2017-ci ildə açıqlanan məlumata görə, Mehdiyeva Qalina Yuriyevnanın sahib olduğu 113 hektar torpaq sahəsinə görə 5 650 manat, Mehdiyev Timur Ramiz oğlu isə 42 hektar torpaq sahəsinə görə 2 100 manat subsidiya alıblar.

"Bank BTB" ASC də Ramiz Mehdiyevin ailəsinə məxsusdur. Belə ki, bu bankın səhmlərinin 74,98%-i (49 min 829 ədəd) Mehdiyeva Nigar İsmayıl qızına - Ramiz Mehdiyevin gəlininə məxsusdur.

**Ramiz Mehdiyev dövlət mükafatlarından məhrum ola bilər**

Hazırda Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

Bu maddələr isə onun Təhlükəsizlik Şurasının üzvü statusundan, eyni zamanda fəxri adlardan və dövlət mükafatlarından məhrum ediləcəyi ehtimalını yaradır.

Ramiz Mehdiyev Azərbaycan Respublikasının "İstiqlal", "Şöhrət", "Şərəf" və Heydər Əliyev ordenləri ilə təltif olunub. O, həmçinin, AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Həqiqi dövlət müşaviri, YAP Veteranlar Şurasının üzvüdür.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə APA-ya Ramiz Mehdiyevin partiyadan çıxarılacağını deyib.

AMEA Prezidenti İsa Həbibbəyli isə agentliyin bununla bağlı sualını eşidən kimi telefonu qapadıb.

Hüquqşünas Şamil Paşayev APA-ya bildirib ki, Ramiz Mehdiyev xüsusilə ağır cinayət törətməkdə ittiham edilir: "Ramiz Mehdiyevin xüsusilə ağır cinayət törətməkdə ittiham olunmasını nəzərə alaraq, onun fəxri adlardan və dövlət təltiflərindən məhrum edilməsinin zəruriliyi məhkəmə tərəfindən müəyyən edilə bilər. Belə ki, xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin ictimai təhlükəliliyinin xarakterini və dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə onun Prezident sərəncamı ilə verilmiş adlardan və təltiflərdən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə Prezidentə təqdimat göndərilməsi haqqında qərar qəbul edir".

Şamil Paşayev bildirib ki, digər dövlət orqanları tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilmə ilə bağlı isə məhkəmə özü qərar qəbul edir.

39_27 IYUI-QARA.qxd 10/16/2025 8:21 PM Page 5



# İlham Əliyev Qazaxıstana gedəcək



***Kasım-Jomart Tokayevin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 20-21-də Qazaxıstana dövlət səfəri edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Prezidentinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, səfər zamanı yüksək səviyyəli danışıqlar aparılacaq. Prezidentlər Ali Dövlətlərarası Şuranın iclasında və Qazaxıstan-Azərbaycan biznes forumunda iştirak edəcəklər.

# Hakim Anar Sadıqovun fəaliyyətinə xitam verildi



***Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Anar Sadıqovun fəaliyyətinə xitam verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Məhkəmə-Hüquq Şurası qərar qəbul edib. MHŞ Anar Sadıqovun hakimlik fəaliyyətinə öz ərizəsi əsasında xitam verib.

Qeyd edək ki, Anar Sadıqovun hakimlikdən getməyinin səbəbi onun hüquq sahəsi üzrə elmi və pedaqoji fəaliyyətlə məşğul olmaq istəyi olub.

# Mərkəzi Hərbi Sanatoriyanın rəisi saxlanıldı

***Mərkəzi Hərbi Sanatoriyanın rəisi İlham Haqverdiyev saxlanılıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, mayor Haqverdiyev korrupsiyada ittiham olunur.

Onun barəsində Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanılıb.

# Bağça müdirlərinin diaqnosik qiymətləndirilməsi keçiriləcək

***Məktəbəqədər təhsil müəssisələrində fəaliyyət göstərən müdirlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması üçün oktyabrın 25-də diaqnostik qiymətləndirilmə həyata keçiriləcək.***

Bu barədə "Unikal"a Təhsil İnstitutunun nəzdində İnsan Resursları Mərkəzindən məlumat verilib.

Bildirilib ki, imtahanların keçiriləcəyi tarix və məkan barədə məlumatlar iştirakçılara göndərilib.

## ELAN

**33 nömrəli Uşaq Musiqi Məktəbinin məzunu Bağırov Hidayət Mehman oğluna verilmiş Şəhadətnamə (DN1580) itdiyi üçün etibarsız sayılır.**

# Prezident Anaklaudia Rossbaxı qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.***

"Unikal" xəbər verir ki, söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunulub.

Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğulayıb.

Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edilib.



Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunulub, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirilib.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirib. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğulayıb.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

# Zəfər Gününə həsr olunmuş hərbi parad keçiriləcək

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərində Zəfər Gününün beşinci ildönümü münasibətilə hərbi parad keçiriləcək.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Parada hazırlıqla bağlı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Azərbaycan Ordusunun bölmələri ilə məşqlər keçirilir. Hazırlıq məşqləri zamanı Bakı şəhəri və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının, həmçinin gəmilərin müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunur.



# Sahibə Qafarova ICAPP nümayəndə heyəti ilə görüş keçirdi

***Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 16-da Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin sədri Çunq Eu-yonqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, Azərbaycanın Asiya ölkələri ilə siyasi əlaqələrin inkişafına xüsusi önəm verdiyini deyən Sahibə Qafarova ICAPP-ın re-



gionda çoxtərəfliliyin, həmrəyliyin mühüm mexanizmi kimi çıxış etdiyini, Asiyada sülhü, təhlükəsizliyi və əməkdaşlığı təşviq edən mühüm platforma olduğunu bildirib.

Söhbət zamanı Ulu Öndər Heydər Əliyevin qurucusu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin hakim partiyası kimi rolu, fəal beynəlxalq əlaqələri haqqında məlumat verilib. YAP-ın Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında fəal və uğurla təmsil olunmasından məmnunluq ifadə olunaraq, tərəflər arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib. Bildirilib ki, o cümlədən YAP-ın təşkilatçılığı ilə Bakıda keçirilən Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının (ACC) "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusunda 4-cü iclası kimi beynəlxalq tədbirlər müxtəlif ölkələrin siyasi partiyaları və mədəni qurumları arasında dialoqun gücləndirilməsinə, qarşılıqlı anlaşmanın dərinləşdirilməsinə və ortaq dəyərlər əsasında əməkdaşlığın inkişafına mühüm töhfə verir.

ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq təmsil etdiyi təşkilatın Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini deyib və ölkəmizin hakim partiyası ilə mövcud əlaqələrin inkişafını qeyd edib.

Söhbətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Azərbaycan Milli Məclisinin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə ICAPP arasında əməkdaşlığın inkişaf perspektivləri, Asiya regionunda parlamentlərarası əlaqələrin genişləndirilməsi, qarşılıqlı anlayışın dərinləşdirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dövlət qulluğuna qəbul olunanların sayı açıqlandı

***Dövlət İmtahan Mərkəzi (DİM) oktyabrın 16-da inzibati vəzifələrin B növünə aid BB altqrupu üzrə dövlət qulluğuna qəbul imtahanı keçirib.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahanda iştirak etmək üçün 550 nəfər qeydiyyatdan keçib. Bakı və Naxçıvan şəhərlərində təşkil olunmuş imtahanda 508 nəfər iştirak edib. BB1 altqrupu üzrə 10 nəfər, BB2 altqrupu üzrə 24 nəfər, BB3 altqrupu üzrə 34 nəfər, BB4 altqrupu üzrə 53 nəfər olmaqla, ümumilikdə 121 namizəd uğur qazanıb.

İmtahanın nəticələri ilə bağlı Apellyasiya Komissiyası 17, 20 və 21 oktyabrda saat 14:00-dan 17:00-dək DİM-in elektron imtahanlar korpusunda fəaliyyət göstərəcək. Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, 50

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2000

# Prezident onların etimadnamələrini qəbul etdi

***Prezident İlham Əliyev bu gün Misirin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib.***

"Unaikal" xəbər verir ki, səfir etimadnaməsini dövlət başçısına təqdim edib. Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirib. Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxunub.





Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlət başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş edib. Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulanıb. Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olunub.

Prezident İlham Əliyev Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini də qəbul edib. Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Dövlət başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirib. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxunub.

Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğulayıb. O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxunub, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd edib. Mariyana Kuyundziç Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirib. Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidenti İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlət başçısına təqdim edib. Prezident İlham Əliyev Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub. Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək,



əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunulub. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulanıb, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edilib, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olunub. Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edilib. Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparılıb, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb.

# Bu qayda Nazirlər Kabineti tərəfindən müəyyən olunacaq

***"Sığorta hadisəsi nəticəsində zərərçəkmiş sığortaolunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən olunacaq".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında komitə sədri Musa Quliyev "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib. Komitə sədri bildirib ki, Nazirlər Kabinetinin qəbul etdiyi qərar əsasında ƏƏSMN-nin nəzdində Tibbi Sosial Ekspertiza Agentliyinin mütəxəssisləri ilə bu işi aparacaqlar:

"Məndə olan məlumata görə, müayinələrin aparılmasının yeni qaydaları nazirlik tərəfindən müəyyənləşib. Bu beynəlxalq normalara uyğun əsasnamədir. Artıq hazırlanıb. Bu qanun qəbul olunduqdan sonra o da qüvvəyə minəcək".

# "Dövlət çevrilişinə cəhd təkbaşına mümkün deyil" - Partiya sədri



***"Ramiz Mehdiyevə qarşı irəli sürülən ittihamlar həddindən artıq ciddidir. Yəqin ki, bu ittihamların altını dolduracaq istintaq əməlləri də olacaq".***

Bunu "Unikal"a açıqlamasında REAL Partiyasının sədri Natiq Cəfərli deyib. Onun sözlərinə görə, bu addımları həyata keçirmək üçün Ramiz Mehdiyevin komandası olmalı idi: "Dövlət çevrilişinə cəhd təkbaşına mümkün deyil. Ümid edirəm ki, istintaq bütün bu sirlərin üstünü açacaq. Bu günə qədər baş verən hadisələrə istintaq orqanları aydınlıq gətirəcək və bu işdə əli olanların hamısı cəzalanacaq".

R.Mehdiyevin əmlaklarının müsadirə edilməsi və fəxri adlarının geri alınması məsələsinə gəlincə, partiya sədri qeyd edib ki, əmlak məhkəmə qərarı ilə müsadirə oluna bilər: "Fəxri adlar Nazirlər Kabinetinin və yaxud Prezidentin fərmanı ilə ləğv edilə bilər. Çox güman ki, istintaqın yekunundan sonra belə qərarlar gözlənilən".

***Anar Kəlbiyev***

# DTX-nın həbs etdiyi Ramiz Vəliyevə hökm oxundu

***Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılan sabiq diplomat Ramiz Vəliyevin cinayət işi üzrə məhkəmənin sonuncu iclası keçirilib.***

"Unikal" xəbər verir ki, bu gün Nərimanov Rayon Məhkəməsində keçirilən prosesdə sabiq diplomata hökm oxunub. Hökmə əsasən, təqsirləndirilən Ramiz Vəliyev 5 il müddətə azadlıqdan məhrum edilib. Əlavə cəza olaraq o, 2 il müddətinə müəyyən vəzifə tutma hüququndan da məhrum olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyində müşavir olmuş sabiq diplomat Ramiz Vəliyev DTX-nin keçirdiyi əməliyyat tədbirləri nəticəsində 8 dekabr 2024-cü ildə saxlanılıb.

Ona AR Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə ittiham irəli sürülüb. R.Vəliyev xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, o cümlədən dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmaqda təqsirli bilinib.

# Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanı təbrik etdi



***Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanı 18 Oktyabr - Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə müşaviri Zeki Aktürk mətbuat konfransında deyib.

"Qardaş Azərbaycanın 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününü təbrik edirik", - deyə o qeyd edib.

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:22 PM Page 7






## Ermənistan vətəndaşlarının məhkəməsi sənədlərin elan olunması ilə davam etdirilir

***Oktyabrın 16-da Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi sənədlərin elan olunması ilə davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında əvvəlcə iqtisadiyyata vurulmuş zərər və iqtisadi itkilərlə bağlı sənəd elan olunub. Qeyd olunub ki, Ermənistanın hərbi təcavüzü nəticəsində müharibənin birbaşa təsirinə və işğala məruz qalmış Azərbaycan ərazilərində ölkənin təsərrüfat subyektlərinin iqtisadi fəaliyyəti tamamilə dayanıb, bölgənin iqtisadi resursları Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilib (o cümlədən təbii resurslar üzərində istismar hüquqlarının xarici şirkətlərə satılması yolu ilə), Azərbaycan iqtisadiyyatı-əhali, müəssisələr və dövlət böyük zərər və itkilərlə üzləşib.

Həmçinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərini işğal etməsi nəticəsində 30 ilə yaxın müddətdə həmin ərazidə yerləşən mineral xammal ehtiyatları Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilib, böyük məbləğdə qeyri-qanuni gəlir əldə olunub, Azərbaycana böyük iqtisadi zərər vurulub. İşğal dövründə filiz və qeyri-filiz yataqlarında qanunsuz istismar işləri aparılıb, həmçinin bütün növ yeraltı su ehtiyatkarından qanunsuz istifadə edilib.

Sənədlərdə göstərilib ki, Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycana məxsus su elektrik stansiyaları işğalçı qüvvələr tərəfindən qeyri-qanuni şəkildə, heç bir ekoloji qaydaya əməl edilmədən istismar edilməklə elektrik enerjisi istehsal olunub. Bununla yanaşı, tikilməkdə olan elektrik stansiyalarının tamamlanması mümkün olmayıb. Nəticədə Azərbaycan hidroenerji istehsalı sahəsində böyük iqtisadi itkilərə məruz qalıb.

Bundan başqa, Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində əhalinin kənd təsərrüfatı ilə məşğul olması mümkün olmayıb, bu səbəbdən həm əhali, həm də dövlət böyük məbləğdə iqtisadi itkilərlə üzləşib.

"Minalar və partlamamış sursatlarla çirkləndirmənin vurduğu zərər" başlıqlı sənəddə qeyd edilib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərinin işğalı zamanı işğal edilmiş ərazilərdə yüz minlərlə mina basdırılıb, geniş ərazilər partlamamış hərbi sursatlar ilə çirkləndirilib. Bu səbəbdən, işğaldan azad edilmiş ərazilərin Azərbaycanın digər ərazilərinə tam reinteqrasiyasının təmin etmək üçün uzun zaman və irihəcmli maliyyə vəsaiti tələb olunur.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# "Artıq dövlət səviyyəsində Ramiz Mehdiyevin həbsi haqqında qərar verilib"

## Misir Mərdanov: "Demək olar ki, o, dövlətin içərisində dövlət yaradıb və bu qədər mülkə sahib olub"

***Keçmiş təhsil naziri Misir Mərdanov "Unikal"a müsahibə verib. O, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlətə qarşı cinayətlər törətməkdə ittiham olunmasından, onun əmlaklarının müsadirə oluna biləcəyindən, bu iş çərçivəsində başqa şəxslərin də həbs olunması ehtimalından və fəxri adların geri alınması məsələsindən danışıb.***



***-Misir müəllim, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev barəsində 4 aylıq ev dustaqlığı qərarı çıxarılıb. O, dövlətə qarşı cinayətlər törətməkdə ittiham olunur. Bu məsələyə münasibətinizi öyrənmək istərdik...***

-Bu qərar verilməmişdən əvvəl də münasibət bildirmişəm. Artıq dövlət səviyyəsində Ramiz Mehdiyevin həbsi haqqında qərar verilib. Gözləyirik ki, hansı cəza veriləcək. Hesab edirəm ki, ədalətli qərar qəbul olunub. Ramiz Mehdiyev uzun müddət Prezident Administrasiyasına rəhbərlik etdiyi dövrdə dövlətə kifayət qədər ziyan verib və bunların əksəriyyəti gözümün qarşısında olub. Hər birini xatırlayıram. Demək olar ki, rəsmi məlumatda bu məsələlər öz əksini tapıb. Mətbuatda onun malik olduğu var-dövlətin siyahısını gördüm. Mənə elə gəlir ki, bu siyahı hələ tam deyil. Yəqin ki, daha çox bilinməyən məsələlər var. İstintaq bunların hamısını araşdırıb yoluna qoyacaq. Biz də ədalətli qərarın şahidi olacağıq.

***-Sizin də qeyd etdiyiniz kimi Ramiz Mehdiyevin bir sıra əmlaklarının siyahısı ilə bağlı mətbuatda məlumat yayılmışdı. Məhkəmə qərarından sonra həmin əmlaklar müsadirə olunacaq?***

-Şübhəsiz ki, müsadirə olunmalıdır. Mənə elə gəlir ki, adı gedən və getməyən əmlakların müsadirə olunmasını görəcəyik. Demək olar ki, dövlətin içərisində dövlət yaradıb və bu qədər mülkə sahiblik edib. Heç bir ağıllı adam belə addım atmaz. Bunun hər rayonda iki villasının olmasına nə ehtiyac var? Bəlkə də çoxunun yerini bilmir. Mətbuatda rayonlar üzrə siyahısını veriblər. Nə ehtiyac var ki, yüz hektarlarla torpaq sahəsi alasan. Camaatın malqarasının otlaması üçün yer yoxdur, bu gedib oraları çəpərləyib. Bu şeylərə ehtiyac var? Daha çox şeylərin üzə çıxacağını gözləyirəm. İnanıram ki, dövlətimiz, müvafiq orqanlar düzgün qərar qəbul edib ictimaiyyətə məlumat verəcəklər.

***-Qarşıdakı dövrdə bu iş çərçivəsində başqa şəxslər də həbs oluna bilər?***

-Onun geniş ətrafı var. 1995-ci ildən 2019-cu ilə qədər Prezident Administrasiyasının rəhbəri vəzifəsində olub. Kifayət qədər qohum-əqrabası, ətrafı, yaxın bildiyi adamlar vəzifədə olub və bu gün də onların böyük əksəriyyəti vəzifədə qalırlar. Düşünürəm ki, istintaq orqanı bu şeyləri üzə çıxarıb, onlar barədə də müvafiq tədbirlər görməlidirlər.

***-Siz də uzun müddət təhsil naziri işləmisiz. Ramiz Mehdiyevin rəhbər vəzifədə çalışdığı dövrdə elm və təhsil sahəsinə hansı təsirləri olub?***

-Deyin ki, hansı sahəyə təsiri olmayıb? Təhsilin anasını ağlar qoyub. Parlament təhsil qanunu qəbul edirdi, o qanunu istədiyi kimi fırladıb başına oyun açırdı. Şəxsən mənə işləmək imkanı vermirdi. Bunu əvvəllər, həmin vəzifədə işlədiyim dövrdə də demişəm. Özünün rəhbərliyi ilə təhsil komissiyası yaratmışdı, ətrafına adamlarını yığmaqla bütün məsələləri orada həll edirdi. Təhsil Nazirliyi isə bir tərəfdə qalmışdı. Camaat da Təhsil Nazirliyini günahlandırırdı. Bu şeylərin hamısı həqiqətdir. Sənədlər, sübutlar var. Yəqin ki, yavaş-yavaş üzə çıxacaq.

***-Məlum olduğu kimi, Ramiz Mehdiyev bir sıra fəxri adlara layiq görülüb. Bu adlar geri alına bilərmi?***

-Partiyadan getməli, fəxri adların hamısı alınmalıdır. Hesab edirəm ki, dövlətə xəyanət edən, dövlət çevrilişinə cəhd edən adam heç bir fəxri ada, ordenə və medala layiq ola bilməz. Hamısı geri alınmalıdır.

***Anar Kəlbiyev***

# "İlham Əliyevlə Kopenhagendəki müzakirələrdən məmnunam" - Paşinyan

***"İlham Əliyevlə Kopenhagendə keçirilən görüşün yekunlarına görə, Ermənistanda kommunikasiyaların blokdan açılması məsələsinin və TRIPP layihəsinin müzakirə edildiyi barədə rəsmi bəyanat dərc olunub".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

Baş nazirin sözlərinə görə, bununla tərəflər TRIPP layihəsinin Ermənistan ərazisində mövcud olduğunu təsdiqləyiblər: "Ermənistanın mövqeyini bir daha təsdiqləyirəm ki, "sülh yollarının kəsişməsi" və TRIPP-dən başqa, onun ərazisində başqa heç bir layihə yoxdur və ola da bilməz".



Paşinyan dövlətimizin başçısı İlham Əliyevlə Kopenhagendəki müzakirələrdən, ümumilikdə təmaslardan və "sülhün institusionallaşdırılması" işindən məmnun olduğunu bildirib: "Artıq Kopenhagendəki bəyanatdan sonra bu məsələyə diqqət yetirməyi lazım görmürəm. Bu mövzu artıq aktual deyil. Bəli, ən yüksək səviyyədə və ən mötəbər beynəlxalq platformalarda müzakirə aparılıb. Məsələ Danimarkada keçirilən görüş zamanı müzakirə olunub və bu, görüşün yekunlarına dair bəyanatda da öz əksini tapıb. Ona görə də bu məsələnin artıq aktuallığı yoxdur. Ən azından mənim üçün bu, siyasi səviyyədə aktual deyil".

***Ağarza Elçinoğlu***

# TƏBİB-dən Cavanşir Feyziyevə 800 min manatlıq şok

## Deputatın oğluna ödəniş niyə kəskin azaldıldı? - Bir tenderlə bağlı 3 milyon 200 min manatlıq müəmma...

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) Milli Məclisin deputatı Cavanşir Feyziyevin oğlu Orxan Cavanşirlə bağladığı müqavilənin maliyyə dəyərini 66,7 faiz azaldıb. "Yeni Sabah"ın əldə etdiyi xəbərə görə, müqavilə deputatın oğluna məxsus ofis və anbar kompleksinin icarəsi ilə bağlıdır.***

Sözügedən ofis və anbar kompleksi paytaxtın Xəzər rayonunun Buzovna qəsəbəsinin Abşeron küçəsi, 142 D ünvanında yerləşir.

TƏBİB son bir neçə ildir ki, dərman preparatlarının saxlanması üçün həmin anbarı icarəyə götürüb və hər il ənənəvi olaraq müqavilənin müddəti uzadılıb.

Bu günlərdə TƏBİB-in tabeliyindəki İnnovasiya və Təchizat Mərkəzi həmin ofis və anbar kompleksinin icarəyə götürülməsi xidməti ilə bağlı O.Cavanşirlə 392 000 manat dəyərində müqavilə bağlayıb.

Baxmayaraq ki, 2021, 2023, 2024-cü illərdə ümumi sahəsi 12,552.30 m2 olan həmin ofis və anbar kompleksinin icarə haqqı ilə bağlı O.Cavanşirlə bağlanılmış müqavilənin dəyəri həmişə 1 milyon 176 min manat olub.

Beləliklə, əvvəlki illərlə müqayisədə TƏBİB-in ofis və anbar kompleksinin icarəsi ilə bağlı Orxan Cavanşirlə bağladığı müqavilənin maliyyə dəyəri 784 000 manat və ya 66,7 faiz azalıb.

"Unikal"ın araşdırmasına görə, Cavanşir Feyziyevin oğlu ofis və anbar kompleksinin icarəyə götürülməsi xidməti ilə bağlı ilk birillik müqaviləni 2021-ci ildə bağlayıb və həmin vaxt geniş müzakirələrə səbəb olub. Həmin vaxt müqaviləni TƏBİB deyil, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bağlamışdı. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 5 ildi fəaliyyətə başlayıb, pilot layihələr edib. Ancaq bununla bağlı heç vaxt ictimaiyyətə normal məlumatlar yaymayıb. Fəaliyyəti ilə bağlı ciddi suallar var, əlçatan xidmət məsələsi axsayır, hələ bir nəfər tanımıram ki, Agentlikdən razılıq etsin. İndi də məlum olur ki, Agentlik Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb - müqavilənin dəyəri 1 milyon 176 min manatdır. Agentlik obyekti ayı 98 min manata icarəyə götürüb, özü də Buzovnada" - həmin vaxt iqtisadçı ekspert Natiq Cəfərli bildirmişdi.

İqtisadçı əlavə etmişdi ki, məsələnin maraqlı tərəfi həmin obyektin sahibinin gənc Orxan Feyziyev (Cavanşir) olmasıdır: "Ola bilər çox bacarıqlı, təhsilli biridir, amma bir məsələ var ki, Orxan bəy deputat Cavanşir Feyziyevin oğludur".

Cəfərli demişdi ki, bu da Azərbaycan fenomenidir - bütün məmur, deputat, nazir uşaqları doğuşdan bacarıqlı biznesmen olurlar, həmişə tenderlər udurlar, bu "sirri" İsveçrə alimləri də çözə bilməyib.

Sonradan sözügedən anbar və ofis kompleksi ilə bağlı müqavilələri TƏBİB bağlamağa başlamışdı. Lakin rəqəm dəyişməmişdi: 1 milyon 176 manat! İndi isə həmin rəqəmin hardasa 67 faiz azalması maraq doğurmaya bilməz.

Bu yaxınlarda Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin İcbari Tibbi Sığorta Agentliyi ilə yanaşı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində də yoxlamalara başladığı barədə məlumat verməsdik. Deputatın oğlu ilə ənənəvi müqavilənin dəyərinin hardasa 800 min manat azalmasının bu yoxlama fonunda baş verməsi diqqət çəkir. Görünür, TƏBİB rəhbərliyi Dövlət Maliyyə Nəzarəti Xidmətinin təftiş apardığı bir vaxtda əvvəlki illərdə məbləğin böyüklüyü səbəbindən də mübahisə doğuran tenderin dəyərində azaltma yolu tutub. Belədə isə başqa bir məqam ortaya çıxır: bəs 2021-2024-cü illərdə hər il üzrə ödənilən 800 min (ümumilikdə 3 milyon 200 min) manat artıq məbləğin taleyi necə olacaq?!



Onu da deyək ki, 2023-cü ildə ilginc bir məqam baş vermişdi. Belə ki, Dövlət Satınalmaları Portalında "İnnovasiya və Təchizat Mərkəzi" Publik Hüquqi Şəxsi tərəfindən keçirilən tender müsabiqəsinin qalibinin - Orxan Cavanşirin adı açıqlanmış, bir neçə gün sonra həmin məlumatlar sözügedən Portaldan nəyə görəsə silinmişdi.

Xatırladaq ki, Cavanşir Feyziyev və onun ailə üzvlərinin - həyat yoldaşı Pərvanə Feyziyeva, oğlu Orxan Cavanşir və qardaşı oğlu Elman Cavanşirin adı Böyük Britaniyada "çirkli pulların" yuyulmasında hallanıb.

Belə ki, 2021-ci ildə Britaniyada Cinayətkarlıqla Mübarizə Agentliyi ailənin bank hesablarında olan 15 milyon funt-sterlinqi (o zamankı məzənnə ilə 34,7 milyon manat) "çirkli pul" sayıb. Daha sonra məhkəmə prosesi keçirilib və Britaniya məhkəməsi 5,6 milyon funt-strelinq məbləğində vəsaitin mənbəyini şübhəli hesab etdiyi üçün müsadirə edib.

Müsadirə edilən vəsaitin 4,4 milyon funt-sterlinqi Pərvanə Feyziyevanın, 1 milyon funt-sterlinqi Orxan Cavanşirin, 240 min funt-sterlinqi isə Elman Cavanşirin hesabından müsadirə edilib.

*Sənan Mirzə*

# Azərbaycanda pensiya islahatları olacaq

***Sığorta-pensiya sistemində maliyyə dayanıqlığının artırılması və sığorta prinsiplərinin gücləndirilməsi istiqamətində islahatlar davam etdiriləcək.***



"Unikal" xəbər verir ki, bu, Maliyyə Nazirliyi tərəfindən hazırlanan "2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi"ndə öz əksini tapıb.

Qeyd edilib ki, hazırda ölkə əhalisinin 69,7 faizi əmək qabiliyyətli yaşda (15-65 yaş), 9,1 faizi isə 65 və daha yuxarı yaş qrupuna aiddir və qeyd olunduğu kimi dünya göstəriciləri ilə müqayisədə hazırkı vəziyyət dövlət pensiya sisteminin maliyyə dayanıqlığı baxımından qənaətbəxşdir. Lakin növbəti bir neçə onilliklərdə ölkə əhalisinin tərkibində yaşlı əhalinin sayının və xüsusi çəkisinin artması dövlət pensiya təminatı sisteminin əsas maliyyə mənbəyi olan məcburi dövlət sosial sığorta haqqı ödəyicilərinin sayının azalmasına, nəticə etibarilə isə onun maliyyə öhdəliklərinin artmasına səbəb ola bilər.

Mövcud demoqrafik meyillərə əsasən, 2024-cü ildə 0,6 faiz olan əhalinin illik artım tempinin BMT-nin "Dünya Əhalisinin Perspektivləri" hesabatına görə 2050-ci ilədək kifayət qədər aşağı enəcəyi gözlənilir.

Eyni zamanda, 15-64 yaş aralığında olan əmək qabiliyyətli əhalinin sayının 2030-cu illərin ikinci yarısında maksimum səviyyəyə çatacağı, daha sonra isə azalmağa başlayaraq, 2050-ci ildə ümumi əhali strukturunda xüsusi çəkisinin 65,4 faizədək azalacağı proqnozlaşdırılır.

Digər tərəfdən, ən sürətli artım 65 və daha yuxarı yaşda olan əhali qrupunda müşahidə olunacaq. Belə ki, 2024-cü ildə 65 yaşdan yuxarı şəxslərin əhalidə xüsusi çəkisi 9,1 faiz təşkil etdiyi halda, bu göstəricinin 2050-ci ilin sonunadək 18,1 faizə çatacağı gözlənilir.

Bundan əlavə, əhalinin iqtisadi rifah, tibbi xidmət, sosial təminatının yüksəlməsi fonunda əhalinin gözlənilən orta ömür uzunluğunun artması gözlənilir ki, bu da öz növbəsində əmək pensiyaçılarının orta pensiya ödənişi müddətinin uzanması və Fondun maliyyə yükünün artırılması ilə nəticələnir.

2024-cü ildə Azərbaycanda orta ömür uzunluğu 74,6 il təşkil etmiş və mövcud artım tendensiyasının davam edəcəyi halda, BMT-in proqnozlarına əsasən 2050-ci ildə 78,6 il olacağı gözlənilir. Qeyd olunan demoqrafik yaşlanma, qeyri-formal məşğulluq, əmək bazarındakı struktur dəyişiklikləri və qlobal çağırışlar fonunda əhalinin pensiya təminatının kəmiyyət və keyfiyyətcə artan müasir tələblərə uyğunlaşdırılması əsas prioritetlərdəndir. Pensiyaçıların dayanıqlı, ədalətli və etibarlı sosial müdafiəsinin təmin olunması məqsədilə sığorta-pensiya sistemində maliyyə dayanıqlığının artırılması və sığorta prinsiplərinin gücləndirilməsi istiqamətində islahatların davam etdirilməsi mühüm əhəmiyyət daşıyır.

Bu kontekstdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sərbəst vəsaitlərinin investisiya fəaliyyətinə cəlb edilməsi pensiya sisteminin uzunmüddətli sabitliyi və gələcək maliyyə davamlılığının təmin olunmasında vacib alət kimi çıxış edir.

# "İlin sonuna doğru yeni iqtisadi qərarlar verilə bilər" - İqtisadçı

***"Bu il iqtisadi baxımdan sabitlik və tənzimləmə mərhələsində keçir. Büdcə siyasətində ehtiyatlılıq, makroiqtisadi sabitliyin qorunması və qeyri-neft sektoruna yönəlik təşviqlər əsas xətti təşkil edir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda bərpa layihələri davam edir: "İlin sonuna doğru yeni iqtisadi qərar və təşəbbüslərin elan ediləcəyi ehtimal edilir".

O xatırladıb ki, Rəqabət Məcəlləsi 1 iyul 2024-cü ildə qüvvəyə minib və Orta Dəhliz, Şimal-Cənub Nəqliyyat Dəhlizi üzrə nəqliyyat və tranzit layihələri genişləndirilib: "Qarabağ və Şərqi Zəngəzurda bərpa və iqtisadi canlanma proqramları dərinləşdirilib. Yaşıl enerji və alternativ enerji üzrə yeni beynəlxalq müqavilələr imzalanıb. Qeyri-neft sektorunda investisiya artımı müşahidə olunub. Turizm və xidmət sektorunda rekord göstəricilər qeydə alınıb. Xarici ticarət dövriyyəsi genişlənib".



## Azərbaycanda pensiya yaşı yenidən artırıla bilər? - Açıqlama

***"Hazırda pensiya yaşının artırılması müzakirə olunmur və bununla bağlı hər hansı layihə təqdim edilməyib. Amma pensiya islahatlarının dərinləşməsi, pensiya qanunvericiliyinin təkmilləşdirilməsi əsas prioritetlərdəndir".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, burada özəl pensiya fondlarının yaradılması, sığorta-pensiya münasibətlərinin tənzimlənməsi də vacib istiqamətlərdən hesab olunur:

"İslahatların bu istiqamətdə dərinləşməsi və yeni qərarların qəbul edilməsi gözləniləndir. Strategiyada qeyd edilən məsələlər daha uzunmüddətli dövr üçün nəzərdə tutulub. Bu dövrdə xüsusilə əhalinin yaşı, sığorta ödənişləri nəzərə alınmaqla qərarların veriləcəyi gözlənilir. Hazırda daha çox özəl pensiya fondlarının yaradılması, pensiya-sığorta sisteminin daha da təkmilləşdirilməsi əsas hədəflərdəndir. Bu istiqamətdə növbəti ildə addımların atılacağı gözlənilir.

Konkret pensiya yaşının dəyişilməsi ilə bağlı hansısa layihə müzakirə olunmayıb. Sözsüz ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi mövcud fiskal imkanlar və demoqrafik vəziyyəti nəzərə almaqla bu istiqamətdə fəaliyyətləri planlaşdırmağa və sistemləşdirməyə çalışır".

Qeyd edək ki, Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində bildirilib ki, hazırda ölkəmizdə müşahidə olunan demoqrafik meyillər bir çox ölkələrlə müqayisədə müsbət olsa da uzunmüddətli dövrdə əhalinin yaşlanması, sığortaolunanlar və pensiyaçılar arasındakı say nisbəti, gözlənilən orta ömür müddəti və sair bir sıra digər amillər pensiya sistemi qarşısında mühüm çağırışlar yarada bilər. 2024-cü ildə 65 yaşdan yuxarı şəxslərin əhalidə xüsusi çəkisi 9,1 % təşkil etdiyi halda, bu göstəricinin 2050-ci ilin sonunadək 18,1 %-ə çatacağı gözlənilir.

***Anar Kəlbiyev***

# "Ramiz Mehdiyev işi"ndə növbəsini gözləyənlər...

## Xəyanətkar qrupun üzvləri arasında kimlər var? - Adları çəkilənlər, təlaşa düşənlər çoxdur

***Yola salmaq üzrə olduğumuz həftə, bəlkə də, ilin ən səs-küylü xəbəri yayıldı. Həmin xəbərdə deyilirdi ki, Prezident Administrasiyasının keçmiş rəhbəri, AMEA-nın sabiq prezidenti, akademik Ramiz Mehdiyev barəsində 4 aylıq ev dustaqlığı qətimkan tədbiri müəyyən edilib.***

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Baş İstintaq İdarəsi tərəfindən aparılan əməliyyat-istintaq tədbirləri nəticəsində Ramiz Mehdiyev haqqında cinayət işi başlanılıb və məhkəmə onun barəsində verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib.

R.Mehdiyev Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 278-ci (Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) və 193-1-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması) maddələri ilə ittiham olunur.

Qeyd edək ki, 1938-ci ildə anadan olmuş Ramiz Mehdiyev hazırda 87 yaşındadır. Məhz bu səbəbdən ilkin istintaq dövründə onun ev dustaqlığında saxlanılmasının məqsədəuyğun sayıldığı ehtimal edilir.

Həmçinin, istintaq dövründə "Mehdiyev işi" ilə bağlı istintaqa cəlb ediləcək şəxslərin sayının xeyli artacağı da iddialar arasındadır. Hesab edilir ki, Rusiya ilə əlaqələri şübhə doğurmayan və anti-Azərbaycan mövqeyi tutan, ölkəni xaosa sürükləməyə çalışan xəyanətkar şəbəkənin sıralarında keçmiş yüksək vəzifəlilərlə yanaşı hətta hazırda müəyyən postlar tutan şəxslərin olması da mümkündür.

Artıq bu istiqamətdə müəyyən açıqlamalar da gəlməkdədir. Məsələn, sabiq təhsil naziri Misir Mərdanov deyib ki, Ramiz Mehdiyevə yaxın şəxslərin də həbs olunmasını istisna etmir. Sitat: "Başqa həbslər də gözləniləndir. Hər kəs onun kimlərlə yaxın əlaqəsinin olduğunu gözəl bilir. Mehdiyevin hansı addımlar atdığı, kimləri vəzifəyə təyin etdiyi, kimlərin arxasında durduğu, hansı şəxsləri dəstəklədiyi məlumdur. Fikrimcə, onlarla bağlı da müəyyən addımlar atılacaq..."

Ramiz Mehdiyevin ardınca daha kimlərin həbs ediləcəyinə gəlincə, bu sırada adları çəkilənlərdən bəziləri aşağıdakılardır:

Nəcməddin Sadıqov - keçmiş Baş Qərargah rəisi, general. Vəzifədə olduğu 1993-cü ildən 2000-ci ilədək Müdafiə Nazirliyi sistemində rüşvət və korrupsiya bataqlığı yaradan Sadıqovun eyni zamanda "5-ci kolon"un hərbi strukturlardakı başlıca adamı olması çoxdan, üstəlik, hər kəsə bəllidir. O, 2020-ci ildə Vətən müharibəsinin ilk ongünlüyündə vəzifədən kənarlaşdırılıb, bu isə Sadıqov barədə məlum ehtimalı daha da qüvvətləndirib.

Əbülfəs Qarayev - sabiq Mədəniyyət naziri. O da 2020-ci ildə Vətən müharibəsi ərəfəsində digər bir neçə məmur kimi vəzifədən kənarlaşdırılıb. Qarayevin postundan uzaqlaşdırılması Rusiyanın ölkədəki təsir dairəsinə endirilən ciddi zərbələrdən daha biri kimi qiymətləndirilib. Mədəniyyət kimi bir sahəni rüşvət və korrupsiyaya bulaşdıran, elə ona görə də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşlarının Mədəniyyət Nazirliyində keçirdikləri əməliyyatdan qısa müddət sonra vəzifəsindən azad edilən Qarayevlə bağlı bu qərarda onun ölkədən kənardakı gizli və qaranlıq bağlantılarının həlledici məqamlardan biri olmasına diqqət çəkilir. Bir müddət əvvəl isə onun adı yerli mediada "5-ci kolon" üzvü kimi hallandırılıb və sabiq nazir haqqındakı həmin ağır ittiham qarşısında susqunluq nümayiş etdirməklə kifayətlənib.

Elmar Məmmədyarov - sabiq Xarici işlər naziri. Məmmədyarov 2020-ci ilin yayında məşhur və qalmaqallı müşavirədə dövlət başçısının qəzəbinə tuş gəlmişdi. Prezident həmin vaxt koronavirus pandemiyası olduğu üçün baş nazir, nazirlər və başqa yüksək vəzifəli şəxslərin iştirakı ilə onlayn müşavirə keçirirdi. Ermənistan silahlı qüvvələri Tovuz istiqamətində Azərbaycana hücum etmişdi. General Polad Həşimov, polkovnik İlqar Mirzəyev, eləcə də 10-dan çox hərbçimiz şəhid olmuşdu. Bu gərgin situasiyada keçirilən müşavirədə xarici işlər naziri Elmar Məmmədyarov yox idi. Prezident elan etdi ki, E.Məmmədyarovu tapa bilmir. Baş nazir Əli Əsədov isə arayış verərək bildirmişdi ki, E.Məmmədyarovla əlaqə saxlayıb, o da cavabında evdən işlədiyini deyib. Bundan sonra ölkə başçısı sabiq nazirin ünvanına sərt tənqidi fikirlər səsləndirdi. Ardınca nazirlikdə aparılan yoxlamalarda külli miqdarda yeyintinin üstü açıldı və həbslər aparıldı. E.Məmmədyarov da eynilə Qarayev kimi işdən çıxarılmaqla canını qurtara bildi. Lakin Qarayevdən fərqli olaraq o, adının Rusiya ilə bağlı hallanmasını mətbuatda təkzib edib. Bunun həqiqətən belə olub-olmadığını isə zaman göstərəcək.

Bu ilin iyulunda yuxarıda adları çəkilən siyahı mətbuatda bir az da genişləndirilib. Başında Mehdiyevin dayandığı anti-Azərbaycan şəbəkəsinin üzvləri arasında Milli Məclisin sabiq spikeri Oqtay Əsədovun, keçmiş deputat Elşad Mirbəşirin, Prezidentin keçmiş Mətbuat katibi Azər Qasımovun, ləğv edilmiş MTN-in sabiq rəhbəri Eldar Mahmudovun, mərhum gənclər və idman naziri Azad Rəhimovun, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sabiq müdiri Əli Həsənovun da adları göstərilib. Həmin şəxslər Rusiyanın Azərbaycandakı təsir şəbəkəsinin üzvləri olmaqla yanaşı daha bir ortaq xüsusiyyətə malikdirlər: rüşvət və korrupsiya hesabına böyük varidata yiyələniblər, oliqarxlaşıblar. Yəni biz gələcəkdə Mehdiyevlə yalnız anti-Azərbaycan fəaliyyətində deyil, həm də dövlət vəsaitlərinin talan edilməsində, qanunsuz yollarla fantastik sərvət toplanmasında ortaqlıq etmiş şəxslərin də (mediada bu qəbildən sabiq nəqliyyat naziri Ziya Məmmədovla onun keçmişdə deputat olmuş qardaşı Elton Məmmədovun adı hallanmağa başlayıb) cinayət işinə cəlb olunmasına şahidlik edə bilərik.



Hələlik isə şübhə yoxdur ki, Ramiz Mehdiyevin haqqında cinayət işi başlanmasının ardından həm yuxarıda adları çəkilənlər, həm də hələ ki, kimlikləri mediaya bəlli olmayanlar arasında ciddi təlaş var. Hətta bəzilərinin öz daşınmaz əmlaklarını - mülklərini, torpaq sahələrini, həmçinin bizneslərini başqalarının adına rəsmiləşdirmək üçün hərəkətə keçdikləri deyilir. Görünür, korrupsiya əməllərinin hüquqi müstəvidə ifşa və isbat edilməsinə şübhə etməyən bu şəxslər həmin yolla əldə etdikləri sərvətin müsadirə olunacağını yaxşı bilir, indidən önləyici tədbirlərə əl atmaq istəyirlər.

Bir sözlə, "Ramiz Mehdiyev işi"ndə bizi daha böyük sürprizlərin gözlədiyinə, illərdir təxmin edilən cinayətlərlə yanaşı, medianın, ictimaiyyətin xəbərsiz olduğu xəyanətlərin, qanunsuzluqların da ortaya çıxacağına şübhə yoxdur. Bəri başdan isə bir şey dəqiqdir: bir vaxtlar özünü hegemon və toxunulmaz sayan ölkədəki anti-Azərbaycan şəbəkəsi artıq çürük ağaca çevrilib və ilk həmlədəcə yanı üstə aşaraq tarixə gömüləcəkdir. Bu şəbəkə üzvləri isə alınlarındakı qara ləkəni heç vaxt və heç nə ilə silə bilməyəcəklər...

***Toğrul Əliyev***

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:22 PM Page 10



# Zakir Qaralov özünün məşhur şirkətini "diriltməyə" çalışır

## Sabiq Baş prokuror "Akkord"un başına yeni şəxs gətirdi - Qalmaqallı ASC yenidən iri tenderlərə cəlb ediləcəkmi?

***Baş prokuror olduğu dönəmdə dövlətin tikinti infrastrukturunun qurulmasına cəlb edilmiş əsas şirkətlərdən birinin - "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"nın faktiki sahibi olan Zakir Qaralov bir neçə illik fasilədən sonra məşhur şirkətini yenidən inşaat sektoruna salmaq istəyir. Bu barədə "Gununsesi.info"ya sabiq baş prokurora yaxın mənbələrdən bildirilib.***

Məlumata görə, Zakir Qaralov son zamanlar "Akkord"un ofisində görünməyə başlayıb. Şirkətin köhnə problemlərinin həllinə çalışan Qaralov onu işğaldan azad edilmiş bölgələrdəki inşaat işlərinə daxil etmək istəyir. O da vurğulanır ki, Zakir müəllim özünün yaxın dostu olan "Bank of Azərbaycan"ın İdarə Heyətinin sabiq sədri Müslüm Mürsəlovu şirkətin başına gətirib. Mürsəlovun həyat yoldaşının Baş Prokurorluqda Dövlət İttihamını Müdafiə İdarəsinin prokuroru olduğu da bildirilir.

Qeyd edilir ki, Müslüm Mürsəlov hazırda "Akkord"un problemlərinin həlli ilə məşğuldur. Belə ki, şirkətin çoxsaylı məhkəmə çəkişmələri, habelə vergi orqanları qarşısında borc öhdəlikləri var. İddialara görə, həmin problemlər çözüləndən sonra Qaralov Qarabağda inşaat işlərinə girəcək.

Düzdür, bir zamanlar baş prokuror olması səbəbindən Zakir müəllimin "Akkord"u tikinti-inşaat sahəsində iri məbləğli tenderləri rahatlıqla "qazanırdı". Lakin onun vəzifədən uzaqlaşdırıldığı bir vaxtda öz şirkətini əvvəlki ehtişamlı günlərinə qaytarmaq cəhdlərinin nəticə verəcəyi elə də inandırıcı görünmür. Bunun bir neçə səbəbi var. İlk növbədə, Azərbaycan təcrübəsi sabiq yüksək vəzifəlilərin öz postları ilə vidalaşmalı olduqdan sonra şəxsi biznes sarıdan heç də yaxşı günlər yaşamadıqlarını göstərir. Necə deyərlər, "bağda ərik var idi, salam-əleyk var idi, bağda ərik qurtardı, salam-əleyk" qurtardı. Bir az da dəqiqləşdirsək, keçmiş iri məmurların vəzifə sayəsində şirkətlərinə qazandırdıqları xüsusi imtiyazlar onlar kreslodan qalxınca itirilir.



İkincisi, Qaralov vəzifədə ikən "Akkord" hər nə qədər böyük məbləğli tenderlər qazanmağa nail olsa da, həmin tenderlərin icrası heç də uğurlu alınmayıb. Buna ən yaxşı nümunə kimi Bakı-Quba-Rusiya yolunun yenidən qurulmasını göstərə bilərik. Sabiq baş prokurorun şirkəti həmin yolu inşa edib ovaxtkı Nəqliyyat Nazirliyinin nəzdindəki "Azəryolservis"ə təhvil verəndən vur-tut 3 il sonra - 2013-cü ildə çökmə və dağılmalar qeydə alınmışdı. Halbuki 146 kilometrlik yolun 134,5 kilometrini betondan inşa etdiyini açıqlayan "Akkord" onun 70 il istifadəyə davamlı olacağı barədə bəyanat yaymışdı. Yolun tikintisinə 2008-ci ildən başlanılmışdı. Rəsmi məlumatlara görə, layihəyə ümumilikdə 545 milyon 287 min 800 manat xərclənmişdi. Həmin vəsaitin 281 milyon 861 min 800 manatı Bakı-Quba Rusiya dövlət sərhədi avtomobil yolunun 120 kilometrlik hissəsinin təmirinə sərf olunmuşdu. Yerdə qalan 263 milyon 426 min manata isə 180 kilometr uzunluğunda beton örtüklü avtomobil yolu tikilmişdi. Ancaq aradan keçən qısa vaxtda bir neçə dəfə yolda ciddi təmirə ehtiyac duyulması həmin yüz milyonlarca manatın təyinatı üzrə, effektli şəkildə xərcləndiyinə dair ciddi şübhələr yaratmışdı. İndi bu cür ampulaya malik bir şirkətə yenidən iri məbləğli tenderlərin etibar ediləcəyinə inanmaq çətindir.

Nəhayət, üçüncüsü, əvvəldə də qeyd etdiyimiz "Akkord" hazırda ciddi problemlər içərisindədir, şirkətin illər boyu üst-üstə qalaqlanan çox sayda problemlərinin aradan qaldırılması elə də inandırıcı görünmür. 2005-ci ildə təsis edilən "Akkord" xüsusilə də Qaralov öz postunu itirdikdən sonra çətin günlər yaşamaqdadır, onun külli miqdarda borcu olduğu kimsəyə sirr deyil, hətta ötən il Azərbaycan mediası yazırdı ki, bu ASC-nin dövlət qarşısında vergi borcu getdikcə artaraq 15 milyon manatı da ötüb. Bir neçə ay öncə isə holdinqin törəmə müəssisəsi olan "Akkord Hydrotechnical Construction Company"nin 1 milyon 200 min manatlıq borc səbəbindən müflisləşməsi barədə xəbər yayılmışdı. Həmin xəbər Qaralovun Baş prokuror vəzifəsini itirməsindən sonra "Akkord"un maliyyə işlərinin qaydasında getmədiyi barədə deyilənləri bir daha təsdiqləyir. Bundan başqa, şirkətin xeyli məhkəmə çəkişməsi də var. Bu sıraya müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr - sair öhdəliklər üzrə mübahisələrdən tutmuş kredit müqaviləsi üzrə mübahisələrədək çox sayda məhkəmə işi daxildir. Həmçinin keçmiş işçilərinin də "Akkord"u məhkəməyə verdiyinə dair məlumatlara mediada tez-tez rast gəlirik.

Bütün bunlar fonunda Qaralovun öz şirkətini yenidən dirçəltmək cəhdlərinin nəticə verəcəyinə, "Akkord"un Qarabağda həyata keçirilən tikinti işlərinə cəlb edilməsi üçün sabiq baş prokurorun göstərdiyi səylərin müsbət sonuclanacağına inanmaq olmur.

Xatırladaq ki, Z.Qaralov 2000-2020-ci illərdə Baş prokuror vəzifəsini tutub. Bu ilin yanvarında onun 68 yaşı tamam olub.

***Sənan Mirzə***



# Dövlət şirkətlərinin zəmanətlə cəlb edilmiş borcu açıqlandı

***2025-ci il 1 sentyabr tarixinə dövlət şirkətlərinin Azərbaycan Respublikasının dövlət zəmanəti ilə təmin edilmiş borcları 10 milyard 727,1 milyon manat və ÜDM-in 8,3 faizini təşkil edib.***

"Unikal"ın xəbərinə görə, bu Maliyyə Nazirliyi tərəfindən hazırlanan "2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi"ndə əksini tapıb.

Məlumata görə, qeyd olunan məbləğin 87,6 faizi xarici valyutada (5526,5 milyon ABŞ dolları), 12,4 faizi isə milli valyutada (1332,1 milyon manat) cəlb edilmiş borclara verilmiş dövlət zəmanətləridir. Azərbaycan Respublikasının dövlət zəmanəti ilə təmin edilmiş borclarının məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 786,7 milyon manat azalıb.

Qeyd edilib ki, Azərbaycan Respublikası adından verilmiş dövlət zəmanətləri əsasən dövlət müəssisələri tərəfindən cəlb edilmiş borclara verilmiş dövlət zəmanətləridir. Uzunmüddətli mitiqasiya tədbiri olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə yaradılmış "Azərbaycan İnvestisiya Holdinqi" və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxslərin idarəetməsinə verilmiş portfel şirkətlərin, o cümlədən dövlət zəmanəti ilə borc cəlb etmiş bir sıra dövlət müəssisələrinin idarəolunması sisteminin təkmilləşdirilərək korporativ idarəetmə standartlarının tətbiq edilməsi, gəlir və xərclərinə nəzarətin gücləndirilməsi, risklərin optimallaşdırılması yolu ilə onların tam sağlamlaşdırılması istiqamətində müvafiq addımlar atılır.

# Gələn il üçün nəzərdə tutulan büdcə kəsiri bu qədərdir

***Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbətinin 2026-cı ildə 2,3 faiz təşkil edəcəyi, 2029-cu ildə isə 2 faizə enəcəyi proqnozlaşdırılır.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində əksini tapıb.

2026-cı ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 94,6 milyon manat, növbəti üç ildə isə müvafiq olaraq 3 milyard 127.5, 3 milyard 558 və 3 milyard 230,2 milyon manat məbləğində proqnozlaşdırılır.

Dövlət büdcəsi kəsirinin əvvəlki illərdə olduğu kimi, özəlləşdirmədən daxilolmalar, borclanma hesabına daxilolmalar (xarici və daxili) və vahid xəzinə hesabının qalığı hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Müəyyən olunmuş bir sıra prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə institutlarından xarici borcun cəlb edilməsi məqsədilə müvafiq prosedurlara artıq başlanıldığından, imzalanacaq borc sazişləri üzrə cəlb olunacaq kredit vəsaitləri kəsirin maliyyələşmə mənbəyində payının artmasını şərtləndirəcək.

Yeni makro-fiskal çərçivənin tətbiqi ilə əlaqədar qarşıya qoyulmuş hədəflərə uyğun olaraq uzunmüddətli dövrdə daxili və xarici borclanma təsdiq edilmiş limitlər çərçivəsində istifadə ediləcək. Bu hədəfin təmin edilməsi üçün dövlət qiymətli kağızlarının və istiqrazlarının emissiyası ilə daxili maliyyə bazarlarının inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanılması davam edəcək. Bununla yanaşı, 2026-cı ildə 3 milyard 870 milyon manat məbləğində proqnozlaşdırılan icmal büdcə kəsirinin 2029-cu ildə 1 milyard 759,9 milyon manat səviyyəsində olacağı gözlənilir.

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:22 PM Page 11





# Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar optimallaşdırılır

***Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar optimallaşdırılır.***

"Unikal" xəbər verir ki, bu Maliyyə Nazirliyi tərəfindən hazırlanan 2026-2029-cu illəri əhatə edən Ortamüddətli Xərclər Çərçivəsində əksini tapıb.

Məlumata görə, qeyri-neft sektoru üzrə ÜDM-də proqnozlaşdırılan artım, həmçinin kölgə iqtisadiyyatının səviyyəsinin azaldılması, fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların optimallaşdırılması, gəlirlərin leqallaşdırılması, elektron idarəetmənin iqtisadiyyatın əksər sahələrinin nüfuzunun artması nəticəsində şəffaflığın təmin edilməsi və nəzarətin güclənməsi növbəti illərdə büdcə gəlirlərinin tərkibində qeyri-neft-qaz gəlirlərinin payının genişlənməsinə səbəb olacaq.

Qeyd edək ki, növbəti il fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaları 2 milyard 379.3 milyon manat, 2027-ci ildə 2 milyard 840 milyon manat, 2028-ci ildə 3 milyard 87 milyon manat, 3 milyard 350 milyon manat proqnozlaşdırılır.

Əlavə edək ki, bu vergi fiziki şəxslərin müxtəlif mənbələrdən əldə etdikləri gəlirlərdən tutulur və onun ödəyicilərinin dairəsi kifayət qədər genişdir. Belə ki, muzdlu işdən (əmək haqqı, mükafat və bonuslardan), sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətdən, icarə haqlarından (kirayə gəlirləri), dividendlərdən və faizlərdən, royalti əmlakın (məsələn, mənzil, torpaq və ya obyektin) satışından qazanc əldə edildikdə və həmçinin yarışlar, lotereyalar, müsabiqələr kimi təsadüfi gəlirlərdən - bütün bu mənbələrdə fiziki şəxslər gəlir vergisi ödəməli olurlar.

# Bəzi məmurlarla əlbir olan işbazların sağlamlığımıza ölümcül qəsdi

## "Podvallar"da şüşələrə doldurulan saxta "bulaq suları"nın yaratdığı təhlükələr haqqında qandonduran faktlar - Bu "bezpredel"ə "dur" deyən tapılacaqmı?

***Xalq inancına görə, su - aydınlıqdır.***
***Bəs xalqın içdiyi, əhaliyə "bulaq suyu", "100 faiz təbii" kimi müxtəlif dəbdəbəli, təmtəraqlı, qulağa xoş gələn adlar altında satılan sular necə, onlar da aydınlıqdırmı?***
***"Unikal" qəzeti son vaxtlar çeşidi artan, ancaq təbiiliyi, bu da azmış kimi keyfiyyəti ilə bağlı çox sayda şübhələr dolaşan içməli sular barədə araşdırma hazırlayıb.***
***Və bu araşdırma zamanı ortaya kifayət qədər düşündürücü məqamlar çıxıb.***

**(əvvəli ötən sayımızda)**

Saxta "təbii sular"ın insan sağlamlığına zərəri

Bazarda "təbii bulaq suyu", "dağ suyu", "artezian suyu" kimi etiketlənmiş, lakin əslində saxta yolla istehsal edilən və satışa çıxarılan içməli sular yalnız istehlakçı hüquqlarının pozulması deyil, bu möhtəkirlik xalqın sağlamlığına zərbə, genefondumuza təhdiddir. Adətən gigiyenik qaydalara əməl olunmadan, bəzən isə adi kran suyunun süzülməsi və ya kimyəvi tərkibinin dəyişdirilməsi ilə hazırlanan həmin məhsulların sağlamlıq baxımından çox ciddi risklərə, təhlükələrə yol açdığı fikrində əksər tibb mütəxəssisləri, qida təhlükəsizliyi ekspertləri həmfikirdirlər.

İndi isə gəlin birlikdə nəzər salaq: saxta "təbii sular", "bulaq suları" orqanizmimizi necə zəhərləyir?

Mütəxəssislərin fikrincə, həmin sular ilk növbədə kimyəvi və bioloji çirklənmə riski yaradır.

Belə ki, saxta suların əsas təhlükəsi onların tərkibindəki zərərli maddələrin nəzarətsiz qalmasıdır. Həmin sular:

- Xlor, nitrat, ammonium və ağır metallar (xüsusilə qurğuşun, sink, civə) ehtiva edə bilər;
- Bakterial çirklənmə - E. coli, salmonella və digər mikroorqanizmlərin olması mədə-bağırsaq infeksiyalarına səbəb olur;
- Uzunmüddətli istifadə qaraciyər, böyrək və sinir sisteminə ciddi zərər vurur.

İkinci təhlükə isə mineralların balanssızlığıdır. Məsələ burasındadır ki, təbii bulaq suları orqanizm üçün vacib olan kalsium, maqnezium və natrium kimi mineralları öz-özlüyündə tənzimləyir. Saxta sularda isə bu balans pozulur. Bəzi hallarda tam demineralizasiya olunmuş, yəni "ölü su" adlandırılan mayelər orqanizmdə elektrolit çatışmazlığı yaradır, maddələr mübadiləsini ləngidir.

Üçüncü məqam uzunmüddətli təsirlərdir. Belə ki, ayrı-ayrı işbazların xalq arasında deyildiyi kimi, "podvallarda" əsasən kran suyundan qablaşdırdıqları saxta içməli sular aşağıdakı ciddi fəsadlara yol açmaq iqtidarındadır:

- Uşaqlarda diş və sümük inkişafında pozğunluq;
- Hamilə qadınlarda dölün sağlamlığına risk,
- Yaşlı insanlarda ürək-damar və böyrək xəstəliklərinin ağırlaşması,
- İmmunitetin zəifləməsi və xroniki yorğunluq müşahidə olunur.

### Sağlamlığımıza təhdidlər bununla da bitmir!

Saxta içməli sularla bağlı başqa risklər də mövcuddur. "Qaz vurub qazan doldurmaq" eşqinə düşərək xalqın sağlamlığını, ətraf-mühitin mühafizəsini heçə sayan möhtəkirlər çox vaxt keyfiyyətsiz, bəzən təkrar istifadə edilən plastik qablar (PET) işlədirlər. Günəş və istiliyə məruz qalan bu qablar bisfenol-A (BPA) və digər toksinləri suya buraxır. Bu maddələr hormon balansını pozur, xüsusilə uşaqlarda endokrin sistemə zərər verir.



Ümumiyyətlə isə saxta "təbii sular"ın, "bulaq suyu" adı ilə camaata sırınan krant sularının istifadəsi təkcə qısamüddətli zəhərlənmələrə deyil, uzunmüddətli orqan zədələnmələrinə də gətirib çıxara bilər.

### Bəs istehlakçılar nə etməlidir?

Yerli bazarı başına götürən saxta içməli sulardan can qurtarmağın müxtəlif yolları var. Mütəxəssislər istehlakçılara bu istiqamətdə bir sıra tövsiyələr verirlər. Onlar məsləhət görürlər ki:

- suyun mənşəyini və istehsalçı adını etiketdən yoxlayın;
- etibarlı mənbələrdən alın, ucuz və "markasız" məhsullardan çəkinin;
- qablaşdırmanın bütövlüyünə və istehsalbitmə tarixinə diqqət edin;
- əgər mümkündürsə, sertifikatlı laborator analiz nəticələrini tələb edin.

Lakin Azərbaycan reallığında bu tövsiyələrə əməl etmək elə də asan deyil. Əvvəla, möhtəkirlər üçün saxta içməli su satmaq kimi saxta etiketlər hazırlamaq da elə su içimi kimi asandır. Üstəlik, əhalinin maddi durumu ucuz və "markasız" məhsullardan uzaq dayanmağa imkan vermir. Digər tərəfdən, işbazların əksər hallarda bəzi məmurlarla qarşılıqlı mənfəət üzərində qurulmuş gizli işbirliyi onları bir çox hallarda "toxunulmaz" edir. Belədə isə bu möhtəkirlər bazarda istədikləri kimi at oynada bilirlər.

### Bəzi məmurların möhtəkirlərlə təhlükəli ortaqlığı...

Normativ sənədlərə əməl etmədən məhsul istehsalı, yararlılıq müddətinin və istehsal tarixinin göstərilməməsi, düzgün markalanmanın, etiketlənmənin aparılmaması, vaxtı keçmiş məhsulların satışda olması ölkə reallığında az qala adi hala çevrilib. Elə içməli sular bazarında da bu cür qanunsuzluqlara mütəmadi rastlanır. Sizə təqdim olunan bu araşdırmanın qəzetimzin ötən sayındakı birinci hissəsində bu barədə konkret faktlarla danışdığımızdan təkrara ehtiyac duymuruq. Sadəcə bir məqamı yenidən vurğulamağa ehtiyac görürük: sadə vətəndaş bir daşı o birinin üstünə qoymaq istəsə, mütləq böyürdən bir məmur peyda olub ona qanunvericiliyin tələblərini xatırladır. Lakin gəl gör ki, Bakı və Abşeronda saxta "bulaq suyu", "təbii su" istehsalı ilə məşğul olan sexlərin nə sayı var, nə hesabı, buna baxmayaraq onların varlığından istehlakçılar şikayətçi olmasalar, heç bir vəzifəli şəxs nə hikmətdirsə xəbər tutmur!

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) 2023-cü il may ayının 1-dən etibarən qablaşdırılmış içməli sularla bağlı nəzarət tədbirləri apararkən müəyyən etmişdi ki, bir çox istehsalçının satdığı qablaşdırılmış içməli suyun mənbəyi artezian quyusu və ya mərkəzləşdirilmiş su xətti olduğu halda, məhsulların üzərində "müalicəvi su", "mineral su" "bulaq suyu" yazılıb. Məsələn, AQTA aşkarlamışdı ki, "Saf Su" adlı içməli su məhsullarının üzərində ümumiyyətlə suyun mənbəyi qeyd olunmayıb. Uyğunsuzluqlarla əlaqədar tədbir görülüb, "Saf Su" məhsulunun üzərində "yüksək keyfiyyətli təbii artezian suyu" qeyd edilib. Lakin maraqlıdır ki, o vaxt istehsalçı bu xəbəri yayan mediaya irad tutmuş, yayılan "yalan məlumatların" adıçəkilən müəssisənin adına və nüfuzuna ciddi zərər vurduğunu bildirmişdi! Mirzə Ələkbər Sabir demişkən: "Qah, qah!... qəribə gülməlisən xaniman xərab!.." Həm qablaşdırdığın suyun mənbəyini göstərmirsən, həm də bunu ictimailəşdirən medianı günahkar çıxarmağa çalışırsan. Bu cür arxayınlığın səbəbi nədir axı?!

Ümumiyyətlə, su istehlakçılarının aldadılması prosesi baş alıb gedir. Bir müddət əvvəl hətta mütəxəssislərdən biri küçələrdə satılan rəngli limonadlarla bağlı vəziyyətin lap biabırçı olduğunu açıqlamışdı. Onun iddiası kifayət qədər tükürpədici idi: hamam vannasında yuduqları qablara limonad doldurub küçələrdə satırlar!

Və ya: əgər hər hansı məhsulun üzərində "Gədəbəy kəhrizlərindən gətirilmiş təbii su" yazılır, istehsalçı müəssisənin də Binəqədi rayonunda yerləşdiyi yazılırsa, bunun adı möhtəkirlikdən başqa nədir?!

Yaxud Bakıda qablaşdırılmış bir məhsulun üzərinə "dağ suyu", "bulaq suyu", "Qax suyu"... yazmaq istehlakçını göz görə-görə ələ salmaq deyilmi?!

Nəhayət, içməli su bazarında bu təhlükəli özbaşınalıq, "bezpredel" illərdir davam edirsə, səngimək bilmirsə, bunda yalnız işbazların deyil, onların əməllərinə göz yuman bəzi məmurların da marağı olduğunu düşünməmək mümkündürmü?!...

***Sənan Mirzə***

## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İnternetin keyfiyyəti dövlətin nəzarətində!

## İKT tərəfindən internetin əlçatanlığı və keyfiyyətinə nəzarət üçün artıq "E-Şikayət" sistemi yaradılıb

***Elə bir dövrdə yaşayırıq ki, həyatımızı informasiya texnologiyaları olmadan təsəvvür edə bilmirik. İnformasiya və kommunikasiya texnologiyaları artıq cəmiyyətin inkişafına təsir edən əsas amillərdən birinə çevrilib. Odur ki, dövlət də İKT-nin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirir.***

İnternetin, poçt və rabitə xidmətinin sürətli və əlçatan olması dövlət siyasətinin əsas prioritetlərindəndir. Genişzolaqlı internet layihəsi çərçivəsində bu gün ən ucqar kəndlə belə internet üzərindən əlaqə qurmaq mümkündür. Amma internetin keyfiyyəti də zaman-zaman müzakirə olunur. Operator şirkətlərin fəaliyyəti bəzən tənqid olunur, abonentlərə sürətli internet xidmətinin göstərilməsi onların qarşısına əsas tələb olaraq qoyulur.

Bəs görəsən bu gün Azərbaycanda internetin sürətinə, keyfiyyətli xidmətin təmin edilməsinə dövlət nəzarəti varmı?

"Unikal" qəzetinin bu sualına Azərbaycanın telekommunikasiya və poçt sahələrində tənzimləyici qurumu olan İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ilə birgə cavab tapmağa çalışdıq.

İKTA-dan sorğumuza cavabda bildirildi ki, internetin əlçatanlığı və keyfiyyətinə nəzarət üçün artıq

"E-Şikayət" sistemi yaradılıb. Vətəndaşlar bu elektron sistem üzərindən İKTA-ya şikayətlərini bildirə bilərlər. Belə ki, sözügedən qurum hər bir edilən vətəndaş müraciətlərinin sayını və dinamikasını davamlı olaraq təhlil edir. Bu təhlillərdən əldə edilən nəticələrə əsasən, tənzimləyici bazar subyektlərinə vətəndaş məmnunluğunun artırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində tövsiyə və təkliflərini verir.

### E-şikayət nədir?

İKTA-dan bildirildi ki, bu sistemdə hər bir telekommunikasiya operator və provayderinin, o cümlədən poçt rabitəsi operatorunun şəxsi kabineti var. İstehlakçılardan daxil olan şikayətlər birbaşa həmin şəxsi kabinetlərdə əks olunur. Agentlik isə xidmət üzərindən prosesləri izləmək və təhlil etmək imkanı əldə edir.

### Vətəndaşlar elektron şikayətdə fəaldır

Quruma 2025-ci ilin yanvar-avqust ayları ərzində telekommunikasiya və poçt xidmətləri üzrə ümumilikdə 4165 şikayət daxil olub. Bu müraciətlərin 63%-i internet (GPON, ADSL və s.) və telefon (məftilli) rabitəsi xidmətləri, 18,9% mobil internet və mobil rabitə xidmətləri, 18,1%-i poçt rabitəsi xidmətləri üzrə qeydə alınıb. Bu müddət ərzində hər gün orta hesabla sistem vasitəsilə 17 şikayət daxil olub. Bu müraciətlər ümumilikdə 108 telekommunikasiya və poçt xidmətləri təchizatçısı barədə ünvanlanıb.



Telekommunikasiya xidmətləri üzrə ilin 8 ayı ərzində "E-Şikayət" sisteminə 3392 müraciət daxil olub. Bu müraciətlərin böyük qismi - 61,8%-i internet (GPON, ADSL və s.) xidmətləri üzrədir. Mobil internet və mobil rabitə üzrə daxil olan müraciətlər 23,3%, telefon rabitəsi üzrə isə 14,9%-dir.

### E-şikayətlər əsasən nədəndir?

İKTA-dan bildirildi ki, şikayətlərin təhlili üçün hər bir xidmət üzrə müraciətlər xarakterinə görə müxtəlif mövzular üzrə qruplaşdırılır:

"İnternet (GPON, ADSL və s.) xidməti üzrə ilk 2 yeri 34%-lə xidmətin işləməməsi və ya onun keyfiyyəti ilə əlaqədar olan müraciətlər təşkil edir. 3-cü yerdə 10,6%-lə xidmət təchizatçılarının istehlakçılara göstərdikləri xidmətlərlə bağlı müraciətlər əks olunur. Bu kateqoriyaya əsasən təchizatçıların istehlakçılarla davranışında və ya onların xidmət mərkəzlərində yaranan problemlərlə bağlı şikayətləri əks etdirir.

Telefon rabitəsi xidməti üzrə daxil olan müraciətlər xidmətin işləməməsi (7,85%), infrastruktur (1,42%) və istehlakçılara göstərilən xidmətlərdən narazılıqla bağlı (1,36%) əsas kateqoriyalara ayrılıb.

Mobil rabitə xidmətində 8,95%-lə operatorun fəaliyyətindən narazılıq, 3,01%-lə mobil operatorların nömrədaşıma məsələsində abunəçilərə yaratdığı çətinliklər və 1,39%-lə tariflərlə bağlı müraciətlər ilk 3-lüyə daxildir. Operatorun ümumi fəaliyyətindən narazılıq mövzusu əsasən abunəçinin operatorun xidmətindən istifadə edərkən bir çox çətinlikləri əks etdirir (şəbəkə zəifliyi, danışıqda donmalar, müştəri xidmətlərinin keyfiyyətsiz xidməti, verilən sorğuların gec cavablandırılması və s.).

Mobil internet xidmətləri üzrə ən çox müraciətlər 0,92%-lə tariflər, 0,8%-lə operatorun ümumi fəaliyyətindən narazılıq və 0,5%-lə xidmətin işləməməsi barədə qeydə alınıb.

Poçt rabitəsi xidmətləri üzrə 8 ay ərzində 773 müraciət daxil olub. Bu da sistemə daxil olan ümumi şikayətlərin 18,1%-ni əhatə edir. Poçt rabitəsi xidmətlərində müraciətlərin 85%-i poçt göndərişlərinin gecikdirilməsi, çatdırılmaması və ya itirilməsi barədə olub. 8% müraciətlər müştəri xidmətləri, digər 7% isə ödənişlər, poçt rabitəsi operatorunun yerləşdiyi obyektin vəziyyəti, istifadə olunan proqram təminatının işləkliyi barədə qeydə alınıb. Ümumilikdə isə müraciətlərin 88,26%-i sürətli poçt xidmətləri, 11,74%-i universal poçt xidmətləri barədə olub".

### Ən çox şikayət haradandır?

Qurumdan bildirildi ki, Agentlik tərəfindən həmçinin daxil olan şikayətlərin sosial-coğrafi meyarları da təhlil edilir.

Beləliklə, müraciət edərkən ünvan olaraq vətəndaşların 54,84%-i Bakını, 5,98%-i Saatlını, 4,51%-i Abşeron - Xırdalan ərazilərini seçiblər. Daxil olan müraciətlərin 79,8%-də vətəndaşlar 10 bölgəni (Bakı, Saatlı, Abşeron - Xırdalan, Sumqayıt, Lənkəran, Gəncə, Cəlilabad, Lerik, Yardımlı, Göyçay) ünvan olaraq qeyd ediblər.

Sistem üzərindən ilin 8 ayı ərzində 78,08% kişi, 21,92% qadın müraciət edib.

Qeyd edək ki, ölkəmizdə internetin keyfiyyəti ilə bağlı şikayətləri qəbul edən daha bir qurum Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyidir.

Qurumdan sorğumuza cavabda bildirildi ki, internet xidmətlərinin keyfiyyət göstəricilərini müəyyən etmək, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin xidmətlərinin keyfiyyətinə nəzarət etmək və monitorinqlər aparmaq Dövlət Xidmətin səlahiyyətində deyil. Bununla əlaqədar olaraq, internet xidmətlərinin keyfiyyəti ilə bağlı Dövlət Xidmətinə daxil olan müraciətlər aidiyyəti üzrə müvafiq dövlət qurumuna göndərilir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Milli Kitabxanada "Əməkdar incəsənət xadimi Firudin Şuşinski -100" adlı ənənəvi kitab sərgisi açılıb

***Milli Kitabxanada görkəmli musiqişünas və tədqiqatçı, Əməkdar incəsənət xadimi Firudin Şuşinskinin anadan olmasının 100 illik yubileyi münasibətilə "Əməkdar incəsənət xadimi Firudin Şuşinski -100" adlı ənənəvi kitab sərgisi açılıb.***

Sərgidə Əməkdar incəsənət xadimi Firudin Şuşinskinin əsərləri, həyatı və yaradıcılığı haqqında Azərbaycan və xarici dillərdə çap olunmuş kitablar və dövri mətbuat materialları nümayiş olunur.

Qeyd edək ki, Firudin Mahmud oğlu Həsənov (Firudin Şuşinski) 1925-ci il oktyabrın 20-də Şuşada anadan olub. İlk təhsilini Şuşada alıb, 1931-ci ildə musiqi məktəbində skripka dərslərinə başlayıb. Pedaqoji məktəbi bitirdikdən sonra bir müddət müəllim işləyib.

1942-ci ildə könüllü olaraq İkinci Dünya Müharibəsinə yollanıb və döyüşlərdə fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə təltif olunub. Müharibədən sonra Ağdamda ədəbiyyat müəllimi kimi çalışıb. 1946-cı ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub və uğurla bitirib.

Tələbə ikən SSRİ Ali məktəb və elmi müəssisə işçiləri İttifaqının Azərbaycan Respublika Komitəsi, Bakı şəhəri ali məktəb tələbələrinin II ümumşəhər elmi konfransında iştirak edib. Konfransda 78 məruzə oxunub və həmin mövzular arasında yalnız Firudin Şuşinskinin "Vaqif dövlət xadimi kimi" məruzəsi I mükafata layiq görülüb. Bu məqalə sonralar müəllifin ilk mətbu yazısı olub. Məzun olduqdan sonra Bakı məktəblərində tarix müəllimi işləyib.

Şuşinski Azərbaycan musiqi tarixinin tədqiqatçısı olub. İlk nəşr olunmuş məqaləsi "Vaqif və Qarabağ" olub. 1968-ci ildə "Şuşa", 1970-ci illərdə Cabbar Qaryağdı və Seyid Şuşinski haqqında kitabları, 1979-cu ildə "Azərbaycanın Xalq müğənniləri və musiqiçiləri" kitabı nəşr olunub.

1989-cu ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

2007-ci ildə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin təşəbbüsü ilə Şuşinskinin topladığı materiallar əsasında tarzən Mirzə Sadıxın həyat və yaradıcılığına həsr olunmuş "Sadıxcan" kitabı işıq üzü görüb.

# Yeni vergi mexanizmi bazarlarda qeyri-leqal fəaliyyətin qarşısını alacaq



***Bazarlarda vergi uçotunun tənzimlənməsi rəsmiləşdirmə prosesindəki çətinlikləri aradan qaldıracaq, istehlakçı hüquqlarını qoruyacaq.***

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib. Qeyd edilib ki, bazarlara vergi nəzarətinin təmin edilməsi ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər cari ilin oktyabrın 1-dən qüvvəyə minib. Bu dəyişikliklər bazarlarda fəaliyyət göstərən bütün şəxslərin qanunvericiliyə uyğun leqal şəkildə fəaliyyət göstərməsini təmin etməyə və qanunsuz sahibkarlığın qarşısını almağa yönəlib.

### Sahibkarlardan və bazar mülkiyyətçilərindən tələb olunan nədir?

Dəyişikliklərə əsasən, bazarlarda icarəçilərin faktiki fəaliyyət göstərməsi yalnız onların icarəyə götürdükləri obyektlərin vergi orqanında uçota alınmasından sonra mümkündür. Bu öhdəlik bazar mülkiyyətçiləri tərəfindən təmin edilməlidir. Qanunvericiliyin yeni tələblərinə görə, bazar mülkiyyətçiləri icarə müqaviləsinə xitam verilmiş, fəaliyyətini dayandıran və ya davam etdirən vergi ödəyiciləri barədə məlumat formasını rübdə 1 dəfə vergi orqanlarına təqdim etməlidirlər.

Eyni zamanda, cari ilin 1 oktyabr tarixindən etibarən növbəti 6 ay ərzində bazar mülkiyyətçiləri vergi orqanında uçota alınmamış təsərrüfat obyektlərinin (mağaza, ticarət obyekti, anbar) və həmin obyekti icarəyə götürən şəxslərin uçota alınmasını təmin etməlidirlər.

### Dəyişiklik nəyə xidmət edəcək?

Sözügedən dəyişikliklərin əsas məqsədi qeyri-qanuni, uçotsuz fəaliyyət göstərən, istehlakçı hüquqlarını pozan sahibkarların fəaliyyətinin qarşısının alınması və onların vergi uçotuna alınmasını təmin etməkdir.

Vergi uçotundan kənar fəaliyyət göstərən bazarlarda alış zamanı çox zaman ödəniş sənədləri (çek, qəbz) təqdim edilmir. Bu isə istehlakçının hüquqlarının pozuntusuna, malların dəyişdirilməsi və ya qaytarılması zamanı problemlərin yaranmasına səbəb olur.

Yeni mexanizm bu problemlərin qarşısını almaqla istehlakçı hüquqlarının qorunmasına və şəffaf bazar münasibətlərinin formalaşmasına xidmət edəcək. Ümumilikdə bu addımlar iqtisadi artıma və sosial rifahın yüksəlməsinə töhfə verəcəkdir.

### Hansı bazarlardan söhbət gedir?

Burada söhbət kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, digər bazarlardan gedir. Yəni, vergi qanunvericiliyinin sözügedən müddəaları kənd təsərrüfatı məhsullarının satışı bazarları istisna olmaqla, tikinti, geyim, qeyri-ərzaq, sənaye və digər məhsulların satış bazarları, ticarət mərkəzləri, eləcə də AVM-lərdə fəaliyyət göstərən şəxsləri əhatə edir.

### Qanunsuz sahibkarlıqla mübarizə

Son illərdə İqtisadiyyat Nazirliyi, o cümlədən Dövlət Vergi Xidməti tərəfindən ardıcıl şəffaflaşdırma tədbirləri həyata keçirilib. Nəticədə biznes mühitində əhəmiyyətli dərəcədə "ağarma" müşahidə olunur. Əmtəə zəncirinin bütün mərhələlərində rəsmiləşdirmə ildən-ilə artır və qanunsuz mal dövriyyəsinin və qeyri-rəsmi satış mənbələrinin aradan qaldırılması istiqamətində nəzarətin artırılması və tədbirlərin görülməsi davam etdirilir.

Bazarlar müxtəlif sahibkarların birgə fəaliyyət göstərdiyi əmlak kompleksi olmaqla yanaşı, bazar mülkiyyətçiləri həmin sahibkarların fəaliyyətini əlaqələndirmək və təşkil etmək kimi vəzifələr daşıyırlar.

Bazarlarda qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində bazar mülkiyyətçilərinin prosesdə fəal iştirakı vacibdir. Yeni mexanizm həmçinin bazarlarda çalışan, lakin aldığı malları sənədləşdirməyən sahibkarların uçota bağlı çatışmazlıqlarını aradan qaldıracaq, rəsmiləşdirmə proseslərini leqallaşdıracaq.

Qeyd edilməlidir ki, sahibkarların vergi uçotuna alınmadan, o cümlədən icarəyə götürdükləri obyektləri vergi orqanında uçota qoymadan fəaliyyət göstərməsinə şərait yaradan bazar mülkiyyətçilərinə qarşı məsuliyyət tədbirlərinin tətbiq olunması vergi qanunvericiliyində açıq şəkildə təsbit edilib(apa).

# "Orta ömrün artması pensiya sistemi qarşısında mühüm çağırışlar yaradır" - Nazirlik

***"Hazırda ölkəmizdə müşahidə olunan demoqrafik meyillər bir çox ölkələrlə müqayisədə müsbət olsa da uzunmüddətli dövrdə əhalinin yaşlanması, sığortaolunanlar və pensiyaçılar arasındakı say nisbəti, gözlənilən orta ömür müddəti və sair bir sıra digər amillər pensiya sistemi qarşısında mühüm çağırışlar yarada bilər".***



"Unikal" xəbər verir ki, bu, Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində əksini tapıb.

Bildirilib ki, hazırda ölkə əhalisinin 69,7 %-i əmək qabiliyyətli yaşda (15-65 yaş), 9,1 %-i isə 65 və daha yuxarı yaş qrupuna aiddir, qeyd olunduğu kimi dünya göstəriciləri ilə müqayisədə hazırkı vəziyyət dövlət pensiya sisteminin maliyyə dayanıqlığı baxımından qənaətbəxşdir:

"Lakin, növbəti bir neçə onillikdə ölkə əhalisinin tərkibində yaşlı əhalinin sayının və xüsusi çəkisinin artması dövlət pensiya təminatı sisteminin əsas maliyyə mənbəyi olan məcburi dövlət sosial sığorta haqqı ödəyicilərinin sayının azalmasına, nəticə etibarilə isə onun maliyyə öhdəliklərinin artmasına səbəb ola bilər. Mövcud demoqrafik meyillərə əsasən, 2024-cü ildə 0,6 % olan əhalinin illik artım tempinin BMT-nin "Dünya Əhalisinin Perspektivləri" hesabatına görə 2050-ci ilədək kifayət qədər aşağı enəcəyi gözlənilir. Eyni zamanda, 15-64 yaş aralığında olan əmək qabiliyyətli əhalinin sayının 2030-cu illərin ikinci yarısında maksimum səviyyəyə çatacağı, daha sonra isə azalmağa başlayaraq 2050-ci ildə ümumi əhali strukturunda xüsusi çəkisinin 65,4 %-ə qədər azalacağı proqnozlaşdırılır. Digər tərəfdən, ən sürətli artım 65 və daha yuxarı yaşda olan əhali qrupunda müşahidə olunacaq. Belə ki, 2024-cü ildə 65 yaşdan yuxarı şəxslərin əhalidə xüsusi çəkisi 9,1 % təşkil etdiyi halda, bu göstəricinin 2050-ci ilin sonunadək 18,1 %-ə çatacağı gözlənilir.

Bundan əlavə, əhalinin iqtisadi rifahı, tibbi xidmət, sosial təminatın yüksəlməsi fonunda əhalinin gözlənilən orta ömür uzunluğunun artması gözlənilir ki, bu da öz növbəsində əmək pensiyaçılarının orta pensiya ödənişi müddətinin uzanması və Fondun maliyyə yükünün artırılması ilə nəticələnir. 2024-cü ildə Azərbaycanda orta ömür uzunluğu 74,6 il təşkil etmiş və mövcud artım tendensiyasının davam edəcəyi halda, BMT-in proqnozlarına əsasən 2050-ci ildə 78,6 il olacağı gözlənilir".

Vurğulanıb ki, qeyd olunan demoqrafik yaşlanma, qeyri-formal məşğulluq, əmək bazarındakı struktur dəyişiklikləri və qlobal çağırışlar fonunda əhalinin pensiya təminatının kəmiyyət və keyfiyyətcə artan müasir tələblərə uyğunlaşdırılması əsas prioritetlərdəndir:

"Pensiyaçıların dayanıqlı, ədalətli və etibarlı sosial müdafiəsinin təmin olunması məqsədilə sığorta-pensiya sistemində maliyyə dayanıqlığının artırılması və sığorta prinsiplərinin gücləndirilməsi istiqamətində islahatların davam etdirilməsi mühüm əhəmiyyət daşıyır. Bu kontekstdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sərbəst vəsaitlərinin investisiya fəaliyyətinə cəlb edilməsi pensiya sisteminin uzunmüddətli sabitliyi və gələcək maliyyə davamlılığının təmin olunmasında vacib alət kimi çıxış edir".

# Balakəndə zərərvericiyə qarşı maarifləndirmə davam edir

***Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair Tədbirlər Planının icrası çərçivəsində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Şəki-Zaqatala regional bölməsinin əməkdaşları Zaqatala və Balakən rayonlarında sakinlərlə növbəti maarifləndirici görüşlər keçirilib.***

"Unikal" xəbər verir ki, görüşlər zamanı payız-qış mövsümündə zərərvericiyə qarşı aparılacaq mexaniki mübarizə tədbirləri barədə ətraflı məlumat verilib.

Zərərverici ilə mübarizədə mexaniki üsullardan geniş istifadə edildiyi qeyd olunur. Bununla yanaşı, Mazımçay sərhəd-keçid məntəqəsində nəqliyyat vasitələrinin sürücüləri ilə profilaktik söhbətlər aparılıb, nəqliyyat vasitələrinin dezinseksiya edilməsinin zərərvericinin uzaq məsafələrə yayılmasının qarşısının alınmasında mühüm rol oynadığı vurğulanıb.



# Azərbaycana gətirilən elektromobillərin sayı azalıb

***Bu ilin yanvar-sentyabr aylarında Azərbaycana ümumilikdə 1 milyard 605 milyon 020 min ABŞ dolları dəyərində 85 257 ədəd avtomobil idxal olunub.***

Bu barədə "Unikal"a Dövlət Gömrük Komitəsindən bildirilib.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 26,5% və 28,6% çoxdur.

9 ayda Azərbaycana 263 milyon 999 min ABŞ dolları dəyərində 12 555 hibrid avtomobil idxal edilib. Bu isə illik müvafiq olaraq 2,8% azalma və 17,2% artım deməkdir.



Dövr ərzində ölkəyə gətirilən plug-in hibrid avtomobillərinin dəyəri 3,5 dəfə artaraq 604 milyon 619 min ABŞ dolları, sayı isə 6,4 dəfə artaraq 31 873 ədəd təşkil edib.

Hesabat dövründə Azərbaycana 48 milyon 210 min ABŞ dolları dəyərində 1 559 tam elektrikli avtomobil idxal edilib. Bu da illik müvafiq olaraq 45,6% və 30,6% azdır.

# 20 Oktyabr Ümumdünya Statistika Günüdür

***Statistika-cəmiyyətin sosial, iqtisadi və demoqrafik həyatında baş verən proseslərin elmi əsaslarla öyrənilməsini, təhlilini və qiymətləndirilməsini təmin edən mühüm bir sahədir. Müasir dövrdə statistik məlumatlar yalnız rəqəmlər toplusu deyil, səmərəli idarəetmə, dayanıqlı inkişaf və ictimai nəzarət üçün əsas vasitə rolunu oynayır. Statistika cəmiyyətin sosial-iqtisadi həyatının obyektiv mənzərəsinin təqdim edən, elmi əsaslarla qərarların qəbulunu və dövlət idarəçiliyinin səmərəliliyini təmin edən mühüm vasitədir. O həmçinin cəmiyyətin inkişaf dinamikasını izləməyə və gələcək planlamanı düzgün qurmağa imkan verir.***



Bu mühüm sahənin əhəmiyyətini beynəlxalq standartlara uyğun statistik məlumatların hazırlanmasını, informasiya mübadiləsini və statistika sisteminin inkişafını diqqətdə saxlamaq üçün Ümumdünya Statistika Günü təsdiq edilmişdir. 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş BMT -nin Statistika Komissiyasının 56 -cı sessiyasında "Ümumdünya Statistika Günü" ilə bağlı BMT katibinin məruzəsi təqdim olunaraq bu əlamətdar günün beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır.

Ümumdünya Statistika günü-Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnaməsi ilə 2015-ci il oktyabrın 20-si "Daha təkmil statistika daha yaxşı həyat" şüarı altında "Ümumdünya Statistika Günü" elan edilmişdir və hər 5 ildən bir qeyd edilir. Bu günün qeyd olunmasında əsas məqsəd müasir qloballaşma dövründə statistikanın rolunu və əhəmiyyətini bütün rəsmi statistika istehsalçılarına, statistik məlumat istifadəçiləri də daxil olmaqla, vətəndaş cəmiyyətlərinə çatdırmaqdan ibarətdir. BMT Statistika Komissiyasının yarandığı 1947-ci ildən sonra Statistika Günü ilk dəfə 2010-cu ildə qeyd olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası 64/267 nömrəli qətnaməni qəbul etməklə etibarlı statistika məlumatlarının hazırlanmasında milli statistika təşkilatlarının fundamental əhəmiyyətini təsdiq edib.

"Ümumdünya Statistika Günü" ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Bununla əlaqədar olaraq Bakı şəhərində 24-25-26 sentyabr 2025-ci il tarixlərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının növbəti iclası keçirilib.

Mötəbər beynəlxalq tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirib, Ümumdünya Statistika Günü ərəfəsində keçirilən Forumun dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi, statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Daha sonra Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin direktoru Tiina Luige və digərləri çıxış edərək Forumun müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gətirilməsi, statistika sahəsində qabaqcıl bilik və təcrübələrin mübadiləsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də birgə layihələrin təşviqi, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildiriblər.

"Ümumdünya statistika gününün qeyd edilməsinə dair Tədbirlər planı"na əsasən gənclər arasında statistikaya marağın artırılması, onların arasından statistik biliklərə malik istedadlı gəncləri aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında statistik olimpiadanın keçirilməsi nəzərdə tutulmuşdur.

Statistika həm qlobal, həm də milli səviyyədə inkişaf edən vacib bir sahədir. 2024-cü il Azərbaycanda statistikanın 130 illik yubileyi və Ümumdünya Statistika Günü eyni vaxta düşərək bu sahəyə olan diqqət daha da artırılmış və ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin ölkə statistiklərinin yaddaşına həkk olunmuş "Dövlət Statistika Komitəsi əsas orqanlardan biridir" məşhur kəlamı Dövlət Statistika Komitəsinə verilən qiymətlərin bariz nümunəsidir.

Cənab İlham Əliyevin ölkədə statistikanın inkişafına, onun müasir beynəlxalq tələblərə uyğunlaşdırılmasına və dövlət idarəçiliyində effektiv istifadəsinə göstərdiyi diqqət həm rəsmi sənədlərdə, həm də praktiki tədbirlərdə öz əksini tapmışdır.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi, regional balansın qorunması, qeyri-neft sektorunun genişləndirilməsi və əhalinin rifahının yüksəldilməsi ilə əlaqədar Dövlət Proqramları qəbul olunmuş və uğurla icra edilmişdir.

DSK-i tərəfindən statistikanın inkişaf tarixi, müasir çağırışlar və rəqəmsallaşma mövzularında respublika və regional səviyyəli konfranslar keçirilib. Eyni zamanda "açıq qapı" günləri təşkil olunaraq vətəndaşlara statistikanın hazırlanma prosesi izah edilib. Yeni interaktiv məlumat portalları istifadəyə verilib. Mobil cihazlar üçün statistik tətbiqlər yenilənib və ictimaiyyətə təqdim olunub. Xarici mütəxəssislərlə statistik sahədə təcrübə mübadiləsi aparılıb. Ölkə üzrə əhalinin siyahıyaalınması, kənd təsərrüfatı siyahıyaalınması həyata keçirilib. Yerli statistika idarələri tərəfindən maarifləndirici seminarlar təşkil olunub.

Son illər Dövlət Statistika Komitəsinin qarşısında duran ən mühüm və həlli vacib məsələlərdən beynəlxalq keyfiyyət standartlarının qısa müddət ərzində öyrənilməsi, təhlili və tətbiqi olmuşdur. Statistik istehsalın bütün mərhələlərini əhatə edən bu standartlar artıq onilliklər ərzində beynəlxalq səviyyədə tətbiq olunur və ölkələrin statistika təşkilatları tərəfindən öz işlərinin səmərəli təşkilində istifadə edilir.

***Sumqayıt Şəhər Statistika İdarəsi***




## 2025-ci ilin 6 ayı üzrə Yevlax şəhərində tikintinin əsas göstəricilərinə dair statistika

***2025-ci ilin yanvar-iyun aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 36293,7 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çox investisiya yönəldilmişdir.***

2025-ci ilin yanvar-iyun ayları ərzində əsas kapitala yönəldilmiş investisiyaların 33760,6 min manatı dövlət mülkiyyətnə, 2533,1 min manatı isə qeyri dövlət mülkiyyətinə yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 34194,2 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə və ya 18020,6 min manat çox olmuşdur.

2025-ci ilin yanvar-iyun aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş tikinti işlərin həcmi 725,1 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 659,8 min manat və ya 47,6 faiz az olmuşdur. Yerinə yetirilmiş işlərin dəyərinin 635 min manatı cari təmir işlərinə, 90,1 min manatı sair tikinti işlərinə sərf edilmişdir.

2025-ci ilin yanvar-iyun aylarında fəaliyyət göstərən tikinti müəssisələrində siyahı tərkibli işçilərin orta sayı 122 nəfər olmuşdur.

2025-ci ilin yanvar-iyun aylarında muzdlu çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 536,4 manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 15,4 faiz çox olmuşdur.

Hazırladı, Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev

## Xərçəngin yayılmasının qarşısını ala bilən peyvənd hazırlandı

***Amerikalı alimlər melanoma, mədəaltı vəzi xərçəngi və döş xərçənginin böyüməsini və yayılmasını tamamilə manee törədə bilən yeni "nanohissəciklərə əsaslanan supervaksin" hazırlayıblar.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, tədqiqat ABŞ-nin Massaçusets Amherst Universitetinin Biotibbi Mühəndislik Departamentində aparılıb.

Bildirilir ki, vaksinin effekti siçanlar üzərində aparılan tədqiqatlarda sübut olunub. Birinci mərhələdə peyvənd vurulan siçanların 80%-i melanomadan tamamilə qorunub, adi peyvəndi alan siçanların heç biri 35 gündən çox yaşamayıb Bundan əlavə, yeni peyvənd tətbiq edildikdən sonra ağciyər metastazı tamamilə dayandırılıb. Tədqiqatın ikinci mərhələsində elm adamları birbaşa şişdən götürülmüş ölü xərçəng hüceyrələrindən istifadə edərək daha real sınaq keçiriblər. Şişin rədd edilməsi mədəaltı vəzi xərçəngi üçün 88%, döş xərçəngi üçün 75% və melanoma üçün 69% idi.

Alimlər insanlarda hələ sınaqdan keçirilməmiş peyvəndin bir çox xərçəng növü ilə mübarizə üçün universal platforma ola biləcəyinə inanırlar.

***Gülayə Mecid***

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:24 PM Page 15



# Zelenski onu hərbi ombudsman təyin etdi

***Ukrayna prezidenti Volodimir Zelenski Olqa Reşetilovanı (Kobylinska) hərbi ombudsman təyin edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna prezidentinin saytında məlumat dərc edilib.

# "Mən Kobaxidze ilə görüşmək istəmədim" - Xəbərləri təkzib etdi

***Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen bildirib ki, Tbilisinin açıqlamasının əksinə olaraq, Gürcüstanın baş naziri ilə görüş onun təşəbbüsü ilə ləğv edilib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Helsingin Sanomat" qəzetinə açıqlamasında deyib.

Valtonen qeyd edib ki, Gürcüstanın baş naziri İrakli Kobaxidze ilə görüş gürcü tərəfinin qərarı ilə deyil, Finlandiyanın təşəbbüsü ilə ləğv edilib və bu barədə oktyabrın 14-də axşam saatlarında Gürcüstan tərəfinə məlumat verilib. O, həmçinin Gürcüstan hakimiyyətinin onun "yalan bəyanatlar verməsi" və ya hər hansı kampaniyada iştirak etməsi ilə bağlı ittihamlarını rədd edib. Bundan əvvəl Kobaxidze bəyan etmişdi ki, o, Elina Valtonenlə görüşü "ötən gün baş tutan qanunsuz mitinqdə iştirakı və yalan bəyanatlarla əlaqədar" ləğv edib.

***Gülayə Mecid***

# ABŞ Rusiyaya ultimatum verib

***ABŞ Rusiyaya müharibəni dayandırmaq üçün ultimatum verib.***

"Unikal" xəbər verir ki, bunu Pentaqon rəhbəri Pit Heqsez deyib.

O qeyd edib ki, bütün NATO müttəfiqləri Ukraynanı Amerika silahları ilə dəstəkləmək üçün PURL təşəbbüsünə qoşulmalıdırlar. Heqsez vurğulayıb ki, müharibə bitməsə və qısa müddətdə sülh yolu ilə həll yolu görünməsə, ABŞ müttəfiqləri ilə birlikdə Rusiyanın Ukraynaya qarşı davam edən təcavüzünə böyük şəkildə cavab vermək üçün lazımi addımları atacaq.

***Ağarza Elçinoğlu***

# Nazir postuna təyin olunmasını televiziyadan öyrəndi

***Yeni qurulan Fransa hökuməti böhranın yeni mərhələsi ilə üz-üzədir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, yeni kabinetdə baş verən hadisə dünya ictimaiyyətinin diqqətini çəkib.

Belə ki, təqaüdçü Mişel Fournier Fransanın Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbəri təyin olunub. Maraqlısı budur ki, Fournier bu təyinatı televiziyadan öyrənib. "Axşam xəbərlərini, həftənin xülasəsini yoxlamaq qərarına gəldim. Televiziyanı açdım və öz şəklimi gördüm. Məlum oldu ki, mən nazir təyin edilmişəm. Və bu qədər. Heç kim mənə heç nə demədi. Keçən həftə bir dəfə Sebastyan Lekornu (Fransanın baş naziri, - red.) ilə danışdım, amma gələcək görüş haqqında heç bir şey demədi", - o, yerli KİV-ə açıqlamasında deyib.

***Gülayə Mecid***

# "NATO MDB məkanında genişlənir" - Rusiya FTX

***NATO ölkələrə silahlı qüvvələrini modernləşdirməyə, kəşfiyyat və hüquq-mühafizə orqanlarını silahlandırmaqda kömək etmək bəhanəsi ilə MDB məkanında genişlənir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) direktoru, MDB-yə üzv dövlətlərin Təhlükəsizlik Orqanları və Xüsusi Xidmətləri Rəhbərləri Şurasının sədri Aleksandr Bortnikov bildirib.

Bortnikov Özbəkistanın Səmərqənd şəhərində keçirilən Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının 57-ci iclasında deyib ki, MDB ölkələrinin təhlükəsizliyinə və sabitliyinə təhdidlər mürəkkəbdir və məqsədyönlü şəkildə kənardan təşviq edilir: "Ukrayna böhranının birbaşa nəticəsi olan NATO-nun genişlənmə proqramı dondurulmayıb. O, ordunun və hərbi infrastrukturun modernləşdirilməsi, kəşfiyyat və hüquq-mühafizə orqanlarının texniki təchizatı, habelə mütəxəssislərin hazırlanması üçün müxtəlif yardım layihələri adı altında digər postsovet dövlətləri ilə davam edir".

***Ağarza Elçinoğlu***

# "Putinin başa düşəcəyi yeganə dil budur" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski beynəlxalq ictimaiyyəti Rusiya lideri Vladimir Putinlə "təzyiq dili ilə" danışmağa çağırıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Telegram" kanalında yazıb.

Zelenski bildirib ki, Rusiya Silahlı Qüvvələri payızın əvvəlindən Ukraynanın enerji infrastrukturuna hər gün zərbələr endirir.



"Rusiya prezidenti Vladimir Putin dünyanın dediklərinin hamısını eşitmir, ona görə də onun hələ də başa düşə biləcəyi yeganə dil təzyiq dilidir. Sanksiyalar vasitəsilə təzyiq, uzunmüddətli taktika ilə təzyiq. Kömək edəcək güclü həll yolları ola bilər", - Zelenski yazıb.

Onun sözlərinə görə, bu, münaqişəyə birbaşa təsir edən ABŞ və Avropadan asılıdır.

***Gülayə Mecid***

# "İlham Əliyev bütün Qafqazın şərəfini qorudu" - Saakaşvili

***"İlham Əliyev bütün Qafqazın şərəfini qorudu".***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın həbsdə olan eks-prezidenti Mixail Saakaşvili özünün "Facebook" səhifəsində yazıb.

O, Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin bu yaxınlarda Düşənbədə keçirilən görüşünə münasibət bildirib: "Həqiqətən də İlham Əliyev Rusiya ilə münasibətlərdə bütün Qafqazın şərəfini qoruyub və hamıya nümunə olub. Təsadüfi deyil ki, əvvəllər Qərbdə Azərbaycandan yayınanlar indi həmin ölkənin prezidentinə ehtiramlarını bildirmək üçün sıraya düzülürlər".

***Ağarza Elçinoğlu***



# "Səkkiz ayda səkkiz müharibəni dayandırdım" - Tramp

***ABŞ prezidenti Donald Tramp 2026-cı ildə Nobel Sülh Mükafatını alacağına ümid etdiyini bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Ağ Evdə jurnalistlərə açıqlamasında deyib.

"Heç bir Amerika prezidentinin hər hansı müharibəni dayandırdığını görmədim. Səkkiz ayda səkkiz müharibəni dayandırdım. Nobel mükafatı aldımmı? Xeyr", - o, ifadə edib.

Həmçinin Tramp əlavə edib



ki, gələn il hər şey daha yaxşı ola və mükafatı qazana bilər.

Xatırladaq ki, Norveç Nobel Komitəsi 2025-ci il üçün Nobel Sülh Mükafatını Venesuela müxalifətinin tanınmış simalarından olan Mariya Korina Maçadoya təqdim edib. O, bu mükafata "Venesuela xalqının demokratik hüquqlarının müdafiəsi və ölkədə diktaturadan demokratiyaya ədalətli və dinc keçid uğrunda yorulmaz mübarizəsinə görə" layiq görülüb.

***Gülayə Mecid***

# "Avropada dron insidentlərinin arxasında NATO dayanır" - Bortnikov

***"Bu yaxınlarda Avropa İttifaqının səmasında baş verən dron insidentlərinin arxasında NATO agentləri dayanır".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiya Federal Təhlükəsizlik Xidmətin direktoru Aleksandr Bortnikov deyib. "Mütəxəssislər NATO-nun kəşfiyyat xidmətlərinin Aİ ərazisi üzərində Rusiya pilotsuz təyyarələri ilə bağlı insidentlərdə iştirakına şübhə etmirlər", - o, ifadə edib.

Xatırladaq ki, sözügedən hadisələr müxtəlif Avropa hava limanları üzərindən dəfələrlə hava məkanını keçən naməlum dronlarla bağlıdır. Üstəlik, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının Səmərqənddə keçirilən 57-ci iclasında Bortnikov Moskva ilə Kiyev arasında danışıqların dəfələrlə pozulmasına görə Britaniya kəşfiyyat orqanlarını da günahlandırıb.

Bortnikovun sözlərinə görə, London sonradan Ukraynaya qoşun yeritmək üçün Qərb dövlətlərindən ibarət koalisiya yaratmağa çalışır.

***Gülayə Mecid***

# "Allahşükür Paşazadənin bəyanatlarına əməl etmirəm" - Paşinyan

***"Mənim tərəfimdən Erməni Apostol Kilsəsinə hücum yoxdur"***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

O, son günlərdə həbs olunan erməni ruhanilərin həbsinə belə reaksiya verib: "Erməni Apostol Müqəddəs Kilsəsinin sənədlərində katolikos və kilsə vəzifəsini tutan şəxsin, eləcə də yepiskopla kilsənin eyni olduğu yazıl-



mayıb. Kilsənin tarixində, məsələn, katolikosun taxtdan salınması, istefaya göndərilməsi və getməsi halları çox olmasa da, olub. Bundan sonra nə baş verdi? Nəticədə kilsə dağıldı? Xeyr, olmadı".

Onun kilsəyə qarşı kampaniyasının Allahşükür Paşazadənin bəyanatları ilə bağlı olub-olmaması ilə bağlı verilən suala Paşinyan "yox" cavabını verib: "Siz izləyirsiniz, mən Azərbaycanın ruhani liderinin bəyanatlarına əməl etmirəm. Ola bilsin ki, bu, çox böyük qüsurdur, amma beynəlxalq platformalarda verilən bəyanatları belə izləmirəm".

***Ağarza Elçinoğlu***

39_27 IYUl-QARA.qxd 10/16/2025 8:24 PM Page 16



# Şəhid Ümüd Qasımzadənin xatirəsinə idman turniri



***44 günlük haqq savaşımızda canı-qanı bahasına düşmənə layiqli cavab verən minlərlə qəhrəmanlardan biri də 2001-ci ildə Cəlilabad rayonu, Göytəpə qəsəbəsində dünyaya göz açan Ümüd Qasımzadədir.***

Vətəninə, xalqına ürəkdən bağlanan Ümüd 2002-ci ildə ordu sıralarına çağırılır. O, cəbhə bölgəsində xidmət edir, Vətən qarşısında borcunu şərəflə yerinə yetirir. İkinci Qarabağ müharibəsi başlayanda birincilər sırasında döyüşlərə atılır. Mərdliklə vuruşur, Vətən torpaqlarının azadlığı naminə yağıya ağır itkilər verir. Füzulidə gedən savaşda xüsusi qəhrəmanlıq göstərir. Yağıya qarşı son damla qanına qədər döyüşüb, 19 yaşında oktyabrın 13- də şəhidlik zirvəsinə ucalır. Əbədi olaraq ürəklərə köç edən Ümüd Qasımzadə dövlət tərəfindən ölümündən sonra “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə “ və digər medallara layiq görülür.

Vətən sevdalı zəfər şəhidi Ümüd məktəb illərində idmanın ağırlıqqaldırma növünə marağı ilə seçilib. Cəlilabad rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən UGİM-də məşq edib. Qazandığı uğurları da çox olub. Belə ki, gənclər arasında Azərbaycan Çempionatında 2019 və 2020-ci illərdə gümüş medallarına sahib çıxıb. 2020-ci ildə Azərbaycan Çempionatında ikinci pilləyə qalxıb.

Bu günlərdə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi və Ümüd Qasımzadə adına Ağır Atletika İdman Klubunun birgə təşkilatçılığı, Cəlilabad Rayon İcra Hakimiyyətinin və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Göytəpə şəhər 2 saylı tam orta məktəbin idman zalında Vətən müharibəsi şəhidi Ümüd Qasımzadənin əziz xatirəsinə həsr olunmuş ağırlıqqaldırma idman növü üzrə rayon turniri keçirilib.

Turnirin açılış mərasimində Dövlət Himni oxunub, Vətən müharibəsi şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla anılıb.

Çıxışçılar bildiriblər ki, 44 günlük haqq savaşımızda Vətən torpaqlarının azadlığı uğrunda qanları bahasına bizə qələbə sevincini yaşadan qəhrəmanların xatirəsi yaddaşlarda yaşayacaq, heç vaxt unudulmaz. Şəhidlik ən müqəddəs bir zirvədir, ona sahib olanlar heç vaxt ölmürlər. Həmçinin bu cür yarışların təşkili gənclərin asudə vaxtlarının səmərəli keçməsinə, onlara sağlam həyat tərzinin aşılanmasına, vətənpərvərlik ruhunda tərbiyəsində bədən tərbiyəsi və idmanın rolunun artırılmasına, ağır atletika idman növünün kütləviliyinə nail olmağa əsaslanır.

Turnirdə 8 çəki dərəcəsi üzrə 30 nəfər idmançı qələbə uğrunda əzmlə mübarizə aparıb. Hər çəki dərəcəsi üzrə 1-ci, 2-ci, 3-cü yeri tutan qalib idmançılar diplom və medallarla təltif olunublar.

Tədbirdən sonra zəfər şəhidin məzarı ziyarət edilib, ehtiram əlaməti olaraq ona təzə güllərdən çələng hörülüb.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Cavadov Niderland klubunun düşərgəsində

***“Sumqayıt”ın əvəzedicilərdən ibarət komandasının baş məşqçisi Vaqif Cavadov “PRO” kateqoriyalı məşqçilik kursları çərçivəsində Niderlandın “Tvente” klubunda təcrübədə olub.***



Bu barədə klubun yaydığı açıqlamada bildirilir. Səfər zamanı həm əsas komandanın, həm də “Tvente” akademiyasının məşqlərini izləyən Cavadov bu əsnada komandanın bir sıra rəsmiləri - baş məşqçi Con van den Brom, klubun inkişaf direktoru Rob Bodre, skaut Vud Brama, akademiyanın futbolun inkişaf departamentinin rəhbəri Bas van Baar həmçinin klubun meneceri Yan van Staa ilə görüşüb, onlarla bir sıra məsələlərdə fikir mübadiləsi aparıb.

Xatırladaq ki, V.Cavadov futbolçu kimi 2010-11-ci illərdə “Tvente”nin üzvü olub.

# Rafinya “El-Klasiko”nu buraxa bilər

***“Barselona”nın braziliyalı hücumçusu Rafinya Dias, La Liqanın ən əhəmiyyətli oyunlarından biri olan “Real”la matçda meydana çıxmaq şansını itirə bilər.***

QOL.az xarici KİV-ə istinadən xəbər verir ki, sentyabrın sonunda zədələnən futbolçu, həmin səbəbdən həm son üç klub oyununu, həm də Braziliya yığmasının oktyabr toplanışını buraxıb.

Xəbərdə bildirilib ki, 28 yaşlı oyunçunun bərpası planlaşdırıldığı kimi getmir və müəyyən fəsadlar yaranıb. Hazırda Rafinyanın “El-Klasiko”ya qədər forma geyinməsi real görünmür.

Qeyd edək ki, “Barselona” 26 oktyabrda “Real”ın qonağı olacaq. Komanda ondan əvvəl oktyabrın 18-də La Liqada “Jirona”, 21-də isə Çempionlar Liqasının 3-cü turunda “Olimpiakos”la qarşılaşacaq.



# Messi yeniyetmələr arasında futbol turniri keçirəcək



***Səkkiz dəfə “Qızıl Top” mükafatını qazanan dünya çempionu Lionel Messi yeniyetmə komandalar üçün ”Messi Kuboku”nu yaradıb.***

Bu barədə o, Instagram səhifəsində məlumat verib. Turnir ABŞ-ın Florida ştatının Mayami şəhərində 9-14 dekabr tarixlərində keçiriləcək.

Futbolçunun bildirdiyinə görə, turnirdə Argentinanın “River Plate” və “Newell’s Old Boys”, Amerikanın “Inter Miami”, İspaniyanın “Barcelona” və “Atletiko”, İngiltərənin “Chelsea” və “Manchester City”, o cümlədən İtaliyanın “Inter” klubu iştirak edəcək.

# Ən az qol vurduğumuza görə 48-ci yerdəyik

***Azərbaycanın futbol üzrə millisi DÇ-2026-nın seçmə mərhələsində ən az qol vuran komandalar sırasındadır.***

QOL.az bu barədə UEFA-nın statistik məlumatlarına istinadən xəbər verir.

Azərbaycan milllisi D qrupunda keçirdiyi 4 oyunda 2 qol vurub. Bu göstərici ilə millimiz 54 komanda arasında 48-ci yeri tutur. Rəqib qapısına ən çox yol tapan komanda isə Norveçdir (6 oyun, 18 qol). Seçmə mərhələdə keçirdiyi 6 matçda heç qol vura bilməyən yeganə komanda isə Lixtenşteyndir.

Azərbaycan millsi qol buraxan komandalar sırasında isə 39-cudur (4 oyun, 11 qol). İngiltərə, İsveçrə və İspaniya seçmə mərhələdə hələ qol buraxmayıblar. Bu nəticə ilə onlar ilk 3 yeri bölüşdürürlər.

# Futbol üzrə U-20 dünya çempionatında finalçılar müəyyənləşdi




***Çilidə keçirilən futbol üzrə U-20 dünya çempionatında finalçılar müəyyənləşib.***

”Unikal” xəbər verir ki, yarımfinal matçlarından sonra Mərakeş və Argentina yığmaları həlledici matça vəsiqə qazanıb.

Yarımfinalda Afrika təmsilçisi Fransanı, Cənubi amerikalılar isə Kolumbiyanı məğlub edib.

Qeyd edək ki, 3-cü yer uğrunda görüş oktyabrın 18-də, final qarşılaşması isə 20-də keçiriləcək.

# "Qalatasaray" erməni futbolçu ilə maraqlanır

***Türkiyənin ”Qalatasaray” futbol komandası erməni futbolçu Eduard Spertsyanla maraqlanır.***

”Unikal” xəbər verir ki, bu barədə xarici KİV-də məlumat yayılıb.

Türkiyə yığmasının baş məşqçisi Okan Buruk ”Krasnodar”ın kapitanını hücumameyilli yarımmüdafiəçi kimi görür.

”Transfermarkt” Spertsyanı 25 milyon avro dəyərində qiymətləndirir.

*Ağarza Elçinoğlu*

# AFFA rəsmisi UEFA-dan təyinat aldı



***AFFA-nın Yarışların Təşkili Departamentinin rəhbəri Emin Cəfərov UEFA tərəfindən təyinat alıb.***

“Unikal” AFFA-nın mətbuat xidmətinə istinadən xəbər verir ki, o, UEFA Konfrans Liqasının Liqa mərhələsi çərçivəsində oktyabrın 23-də keçiriləcək “Şkendiya” (Şimali Makedoniya) - “Şelburn” (İrlandiya) oyununun UEFA nümayəndəsi olacaq.

Qeyd edək ki, qarşılaşma Skopye şəhərində yerləşən Todor Proeski adına milli stadionda keçiriləcək.